Bizim Ailə

№:15-Sentyabr-Oktyabr-2010-Qadın-Ailə Jurnalı

DOĞRU YOLUN
ƏNGƏLLƏRİ

BİDƏT VƏ
XÜRAFƏLƏR

BİZİM AİLƏ
Qadın- Ailə jurnalı
Dövlət Reyester№ 20929

Təsisçi:
İpəkyolu MMC

Redaktor:
Samirə Mahmudova

Məsul katib:
Mədinə Əliyeva

Redaktor müavinləri:
Qətibə Vaqifqızı
Mətanət Kərimova

Redaksiya heyəti:
Dr.Mehri Məmmədova
Dr.Nailə Süleymanova
Dr.Sevinc Aslanova
Dr.Mehriban Qasımova
Dr.Samirə Həsənova
Zeynəb Nuri
Meryem Demir
Vüsalə Quliyeva
Rəna Mirzəliyeva
Aygün Məmmədzadə
Mətanət Kərimova

Abunə və reklam işləri:
Aynur Məmmədova

Dizayn: Bizim ailə

Ünvan: Bakı şəhəri, Cəfərov Qardaşları küçəsi. 16
Tel: (+994 050) 369 65 23
(+994 12) 502 07 55

Web:
www. bizimaile. az
e-mail:
bizimaile@bizimaile.az
bizimailedergisi@yahoo.com

Əziz oxucu!

On bir ayın sultanı Mübarək Ramazan ayını yola salırıq. Bir tərəfdən kədərlənirik, digər tərəfdən sevinirik. Kədərlənirik ona görə ki, Ramazan ayından qarşılıqlı bir-birinə sevgi və sayğısı olan iki dostun ayrıldığı kimi tam on bir ay uzaq qalacağıq. Sevinirik ona görə ki, Allah Təalanın **"Oruc tutun"** əmrini yerinə yetirdik. Biz bunu cani-könüldən etdik, istəyərək, Allah Təalanın əmri olduğu üçün bir ay bir çox həvəslərimizdən, nəfsimizin arzularından uzaq qaldıq. Ac qaldıq, susuz qaldıq, amma nəfsimizə **"Dayan!"** dedik. Nəticədə isə bir əmrin yerinə yetirilməsi zamanı duyulan ən böyük razılıq və həzzi bərabər daddıq. Bu sevincimizi ailəmizlə, dostlarımızla birlikdə bayramlaşaraq yaşadıq və Allah Təalaya növbəti Ramazana qədər bizi qovuşdurması üçün bol-bol dualar etdik. İnşallah, dualarımız qəbul olunmuşdur.

Əziz oxucularımız, jurnalımızın bu sayında əsas mövzu müasir dövrümüzdə geniş yayılan xurafat və bidətlərdir. Bu mövzu bu günün ən aktual məsələlərindən biridir. Xurafat və bidətlər həqiqətə uyğun olmayan, insanları din adına aldadan və müəyyən zamanlarda, hətta bədbinliyə düçar edən şeylərdir. Bu isə cəmiyyətdə hələ də dini biliklərin lazımi səviyyədə olmamasından irəli gəlir. Çarəsiz qaldığımız zamanlarda Allaha sığınmalıyıq, hər şeyin Allahın əlində olduğunu unutmamalıyıq. Ümumiyyətlə, bu mövzuyla əlaqədar jurnalımızda indiyə qədər az da olsa məlumatlar verilmişdir.

Bundan əlavə bu sayımızda möhtərəm **Osman Nuri Topbaşın "Bir kuzə su", Hatice Şahinin " Niyyəti xeyir olanın aqibəti də xeyir olar", AMEA M. Füzuli adına Əlyazmalar İnstitu i.e.d. Nailə Süleymanovanın İslamın "Dində məcburiyyət yoxdur" hökmü haqqında", Qətibə Vaqifqızının Osmanlı dövründən yadigar qalan Türkiyənin Balıkəsir şəhərindəki qədim məsciddən bəhs edən "Atatürkün xütbə oxuduğu məscid" Sevinc Vəkilovanın "Ramazan bayramı və Qədr gecəsi"** yazılarını sizlərə təqdim edirik. Hər zamankı kimi yenə də xanımlara faydalı məsləhətlər, ləzzət dünyası, uşaq dünyamızı sizlərə təqdim edirik.

Sonda Ramazan Bayramı və 15 Sentyabr Bilik günü münasibəti ilə bütün Azərbaycan xalqını və bütün Dünya müsəlmanlarını təbrik edirik.

İÇİNDƏKİLƏR

3

BİDƏT VƏ XURAFATLAR

6

İNSANLARIN BİDƏT VƏ XURAFATLARA MARAĞININ SƏBƏBİ



22

BİR KUZƏ SU

29

Könüllərin Gülü

HƏZRƏT FATİMƏNİN GÖZ YAŞLARI

BİDƏT VƏ XURAFATLAR
Samirə MAHMUDOVA.....3

İNSANLARIN BİDƏT VƏ XURAFATLARA MARAĞININ SƏBƏBİ
Mədinə ƏLİYEVA.....6

QARA GİRDAB
Meryem DEMİR.....8

MƏNƏVİYYATLI İNSAN KİMDİR?
Xanım HƏMZƏYEVA.....11

KİM İDİ, KİM OLDU?!
Mətanət KƏRİMOVA.....12

GƏNCLƏRİ BİDƏTLƏRDƏN NECƏ QORUMAQ OLAR?
Vüsalə QULİYEVA.....14

DİNDƏ MƏCBURİYYƏT YOXDUR
Dr. Nailə SÜLEYMANOVA.....16

BAĞBANIN ŞƏFQƏTİ
Qızyetər PİRİYEVA.....18

NİYYƏT XEYİR İSƏ AQİBƏT DƏ XEYİR OLUR
Hatice ŞAHİN.....20

BİR KUZƏ SU
Osman Nuri TOPBAŞ.....22

ATATÜRKÜN MƏSCİDİNDƏ XÜTBƏ OXUDUĞU ŞƏHƏR
Qətibə VAQİFQIZI.....29

RAMAZAN BAYRAMI VƏ QƏDR GECƏSİ
Sevinc VƏKİLOVA.....32

ƏHSƏNÜL-TƏQVİM
Səlimə ƏHMƏDOVA.....34

RAMAZANİ-ŞƏRİF MƏNƏVİ YÜKSƏLİŞ MƏQAMIDIR
Ceyhunə QASIMOVA.....36

LƏZZƏT DÜNYASI
Müyesser TAŞLIYAR.....38

MƏTBƏX MƏDƏNİYYƏTİ
Məryəm XƏLİLOVA.....40

BAQQAL VƏ TUTUQUŞU
Hicran NOVRUZOVA.....42

XƏBƏRLƏR.....44

Samirə MAHMUDOVA

BİDƏT VƏ XÜRAFƏLƏR

Bidət dinin əslində olmadığı halda sonradan əlavə edilən davranış və inanclardır. Zəmanəmizdə bidət adı çəkildiyi zaman insanları qeyri-adi bir qorxu bürüyür. Halbuki bu bidətlər içərisində insanların həyat şərtlərini asanlaşdıran ünsürlər də çoxdur.

Qurani-Kərimdə dinin Hz. Məhəmmədin (s.ə.s) risalətiylə tamamlandığı bildirilir. (Maidə 5/3) Bundan sonra dində icad edilən hər şey bidət mənasına gəlir. Bidət sünnənin ziddidir, yenilik və islahat mənasına gəlir. Peyğəmbərimiz zamanında olmayan, sonradan ortaya çıxan mənasına gələn bidət adətdə və dində olmaq üzrə ikiyə ayrılır: Adətdə olan bidət hər qövmün, hər məmləkətin etdiyi işlərdir. Bunlar dində qadağan olmayıb, insanlara faydalı olan işi görməkdir və istifadə etməkdə heç bir qəbahət yoxdur. Şalvar, müxtəlif ayaqqabı, qab-qacaq, insanın həyat şərtləri üçün vacib olan hər şey buna daxildir. Dində bidət isə edilən hər cür dəyişiklik və reformlardır. Bir qism İslam alimləri dini qoruma baxımından ortaya çıxan bidətləri İslamın ruhuna aid olub-olmama yönündən ikiyə ayırmışdır: Yaxşı və yenilik qatan bidətlər bidəti-həsənə, Quran və sünnənin hökmlərini zədələyən bidətlərə isə bidəti-seyyiə adını vermişlər. Bidəti-həsənə Qurani-Kərimi kaset, CD və DVD vasitəsilə dinləmək, televizorda maarifləndirici və intellektual səviyyəyə xitab edən proqramları izləmək və s. Bidəti-seyyiə isə bir işi

Allahdan deyil (duanın qəbul edilməsi, oğul-uşaq sahibi olması və s.) türbə, ocaq və pirlərdən imdad diləməkdir. Peyğəmbərimiz həyatda ikən İslam dini tamam olmuşdur. Heç bir əskiklik qalmamışdır. Buna görə İslam dinini izah edən kitablarda bidət çıxartmaq və yaymaq İslam dinini yıxmaq və sünnəni yox etmək sayılmışdır. Bidətlər artdıqca İslamiyət zəifləyər və unudular.

İslam alimləri dinimizin inam və ibadət həyatı ilə əlaqəli cəhətlərinə əlavə olunan yeniliklərə sərhəd qoymuşdur. Ancaq insanların həyat şərtlərini asanlaşdıran, inam və ibadət həyatına aid olmayan bəzi yeniliklərə qapı açmışdır. Bəzi islam alimləri isə islam adət-ənənəsində aid olmayan hər yeniliyi bidət sayaraq zəmanə şərtlərini ağırlaşdırmağa qədər getmişdir. Halbuki bu yeniliklər insanların həyatına rahatlıq gətirən dinin hökmlərini sarsmayan və Peyğəmbər sünnəsinə əks olmayan ünsürlərdəndir. Bunlara misal olaraq avtomobil, elektrik alətləri, müxtəlif ev əşyaları və s. saymaq olar.

Hz. Peyğəmbər bir gün məsciddə ikən səhabələrdən birisi qorxa-qorxa bir qəndil gətirir. Rəsulullah (s.ə.s) bunu haradan gətirdiyini və nə işə yaradığını soruşur. Səhabə isə əcəm diyarından gətirdiyini və evi işıqlandırdığını söyləyir. Gözlədiyinin əksinə olaraq Rəsulullah (s.ə.s) qəndilin evi nurlandıracağını deyərək ona iltifat edir. Bu hədis bizə Allah Rəsulunun müsəlmanların həyat tərzlərini yaxşılaşdıracaq hər yeniliyə açıq olduğunu göstərir. Hz. Peyğəmbər (s.ə.s) bir hədisində: *"Kim məndən sonra tərk edilmiş bir sünnəmi canlı tutarsa onunla əməl edən hər kəsin savabı qədər həmin insana savab verilir, həm də onların savabından heç bir şey əskilmədən. Kim də Allah və Rəsulunun razılığına uyğun düşməyən bir pis bidət icad edərsə, onunla əməl edən insanların günahları qədər həmin insana günah yüklənir"*- buyuraraq sevmədiyi bidətin Allah və Rəsulunun rizasına uyğun olmayan pis bidət adlandırmışdır. **(Müslüm, Elm, 6; Tirmizi, Elm, 16)** O halda, dinin ruhuna və ibadətlə əlaqəli məsələlərinə aid olmayan yenilikər pis bidət sayılmaz.

Zəmanəmizdə dinin əslində olmayan bir çox inanc və xürafənin dindəymiş kimi göstərilməsi Peyğəmbərimizin *"İslam ucadır, ondan uca heç bir şey yoxdur"*- sözünə və İslamın ucalığına xələl gətirən səbəb-

Bidət-dinin əslində olmadığı halda sonradan əlavə edilən davranış və inanclardır. Zəmanəmizdə bidət adı çəkildiyi zaman insanları qeyri-adi bir qorxu bürüyür. Halbuki, bu bidətlər içərisində insanların həyat şərtlərini asanlaşdıran ünsürlər də çoxdur.

lərdəndir. Məsələn, axşam vaxtı ev süpürülməz; önündən qara pişik keçərsə, işin düzəlməz; 13 rəqəminin nəhs olması; axşam vaxtı evdən pul verilərsə, bərəkət qaçar; uşaqların qoluna bağlanan gözmuncuğunun nəzəri qaytaracağı; qəbirlərin üzərlərinə daş, mərmər qoyulması və mütləq yeddi, qırx verilməsi kimi hallar insanların həyatlarına ağırlıq gətirən səbəblərdəndir. Yası olan insanın yeddi və qırx verməsi deyilən adət İslamda yoxdur. Rəsulullah (s. ə.s) ölən insan üçün 3 gün yas saxlanıldığını buyurur. Halbuki pulu olan, olmayan, yas düşdüyü zaman ölüsünü unudub, gələnləri necə qarşılama dərdinə düşür. Verdikləri **"ehsan"** isə digərlərinin ehsanından dala qalmamalıdır. Əsri-səadət zamanına baxdığımızda ölən insanın ailəsinə başsağlığı verər, sonra isə qonşulara 3 gün yas olan evə yemək aparmağı, onun yemək bişirməyə imkanının olmadığını tapşırardı. Ancaq yas yerləri şöhrət, öyünmə və göstəriş yeri olmamalıdır. Hələ ölən adamın yiyəsi kasıbsa, "başsağlığına" gələnlərə yemək yedirmək üçün borca və yaxud sələmə belə girir. Bu cür hallar camaatımızın dini lazımınca bilmədiklərindən irəli gəlir. Dini biliyi olmayan insanların bu cür dinin əslinə tərs olan bir çox yanlış inanc və xürafələri dinin gərəyi kimi qəbul etmələri və savab vəsiləsi olaraq görmələri İslamın ruhuna ziddir. Bu kimi səhv addımların qarşısının alınmasının yeganə yolu İslam dininin öyrənilməsi və öyrədilməsidir. Əks təqdirdə isə bu boşluğu batil inanclar, bidət və xürafələr dolduracaqdır.

Mədinə ƏLİYEVA
medine_e@yahoo.com

İNSANLARIN BİDƏT VƏ XURAFATLARA MARAĞININ SƏBƏBİ



Falçılara müraciət etmə, onların söylədiklərinə inanmaq, qəhvə falına baxdırmaq, kart açdırmaq, kitab səhifəsinə baxdırmaq kimi müxtəlif davranışlar bidət və xurafatlara daxil olur. Bu da insanların İslami bilik səviyyəsinin az olmasından irəli gəlir.

Hz. Məhəmməd (s.ə.s.)in vəfatından sonra müxtəlif inanc və mədəniyyətlərə mənsub xalqaların İslama daxil olması ilə bərabər onlara aid bəzi inanc və davranışları da İslama daxil olmuşdur. İslam dini də digər kitablı dinlər kimi İslam ilə şərəflənmiş cəmiyyətlərin cahiliyyə dönəminə mənsub etiqadi qalıqlarından xilas ola bilməmiş, əvvəlki dinlərə aid adət və mərasimlər xalq arasında varlığını davam etdirmişdir. Zamanla bunlar İslamın imtina edilməyəcək ünsürü halına gəlmişdir. Bu gün bir çox İslam ölkələrində, eləcə də vətənimizdə bir çox xurafat və bidətlərlə qarşılaşırıq. Bu halları daha çox qadınlarımızda görürük. İnsan bir çətinliklə qarşılaşdıqda, bir dərdi olduqda bundan xilas olmaq üçün başqa yerlərdən bir çarə axtarmağa başlayır. Bu da dinimizin məntiqini, gözəlliklərini yaxşı bilmədiklərindən irəli gəlir. Bu xüsusiyyətlər psixoloji səbəblərdən irəli gəlir.

İkinci səbəbi isə əşyanın və təbiət hadisələrinin mahiyyətini bilməməkdən irəli gəlir. Heyvanların çıxartdığı müxtəlif səsləri, ay və gün tutulmasının tez bitməsi üçün müxtəlif fəaliyyətlərdə olması kimi xüsusiyyətlər, əşyanın və təbiət hadisələrinin mahiyyətini dərk etməməkdən irəli gəlir.

Üçüncü səbəbi də insanların gələ-

cəyi bilmə və öyrənmə istəyidir. Falçılara müraciət etmə, onların söylədiklərinə inanmaq, qəhvə falına baxdırmaq, kart açdırmaq, kitab səhifəsinə baxdırmaq kimi müxtəlif davranışlar bidət və xurafatlara daxil olur. Bu da insanların İslami bilik səviyyəsinin az olmasından irəli gəlir.

Bidət və xurafatların ortaya çıxmasının 4-cü səbəbi insan təbiətində mövcud olan **"qorxu"** duyğusudur. Bu xüsusiyyət də insanların müxtəlif bidətləri mənimsəməsinə səbəb olur. İnsanların nəzərə gəlməsindən qorxaraq gözmuncuğunu, dağdağan ağacının budağından kəsib uşaqların qoluna taxmaları və bundan başqa aşağıdakı bidət və xurafatlar da bu səbəblərdəndir:

Günümüzdə məşhur olan bidətlər və xurafatlar aşağıdakılardır:

- Ağaclara çit parça bağlayıb arzu tutmaq, övlad istəmək. Pirlərdən, məzarlardan yardım diləmək. Məzarların başına dolanıb öpmək, məzara şəkər, daş yapışdırmaq. Məzarda qurban kəsmək.
- Maşının qarşısından dovşan keçdikdə uğursuzluq gətirməsi.
- At nalının və gözmuncuğunun qapının baş tərəfindən asılaması.
- Stəkanın qırılmasının xeyrə əlamət sayılmaması.
- Boyu ölçülən uşağın boyunun qısa qalması.
- Cümə axşamı ev süpürülərsə, mələklərin qanadı sınar. Cümə günü ev süpürmək günahdır. Günəş batdıqdan sonra ev süpürülməz. Gecə ev süpürülərsə, yoxsulluq olar.
- Uşağın qırxı çıxmamış dırnağı və saçı kəsilərsə, arsız və yaxud da oğru olar.
- Əldən ələ dərman verilməz.
- Əllər və ayaqlar bir-birinə bağlanarsa, bəxt bağlanar.
- Gecə dırnaq kəsilərsə, ömür azalar.
- Gecə güzgüyə baxılmaz, bəxt bağlanar.
- İnsanın üstündəki sökük tikilməz.
- Qəbirlərin üzərinə düyü səpilməsi. Qəbirin üzərinə üç dəfə daşla vurulması. Yüksək səslər çıxarılması. Qəbir ziyarətindən sonra şirniyyat və konfet paylanması. Bu o demək deyil ki, qəbirləri ziyarət etməməliyik. Əksinə qəbirləri ziyarət etməli və bizə ölümü xatırlatdığını unutmamalıyıq.
- Ayaqda şalvar geyinmək yoxsulluğa işarətdir.
- Axşam evdən çörək, pul və kibrit verilməməsi.
- Maşınların güzgüsündən gözmuncuğu, tikan və təsbeh asılması.
- Qızların bəxti açılsın deyə pirləri dolaşdırıb şam yandırma. Yeni olan uşağın bəxti gözəl olması üçün pirləri gəzdirib, şəkər, duz və halva yedirtmə.

İnsanlar bu adət-ənənələri din yerinə qoyur və səhv etdiklərini qəbul etmirlər.

Nəticə olaraq onu deyə bilərik ki, bu gün cəmiyyətimizdə ictimai bir xəstəlik halını almış bu batil inanclardan xilas olmağın səbəbi səviyyəli dini təhsil alınması və mətbuat orqanları tərəfindən bu inancların bidət və xurafat olması xalqa bildirilməlidir.

Meryem DEMİR

QARA GİRDAB

"Fal" sözünün kökü "feil"dir. Bu da "uğur, taleh, bəxt" mənalarını kəsb edir.

Cəhalət dövrü ərəblərində fal:

Cəhalət dövrü ərəbləri, bir səfərə, bir döyüşə, bir ticarətə, bir nikaha, yaxud hər hansı bir işə təşəbbüs etdikləri vaxt üç zər (və ya ox) çəkərlər, yaxud quş uçururdular. Bu zərlərin (və ya oxların) birində *"Rəbbim əmr etdi"*, yaxud *"et"* deyə əmr; digərində, *"Rəbbim nəhy etdi"*, yaxud *"etmə"* deyə nəhy sözləri yazılırdı, biri də boş qalırdı. Bir nəfər torbaya əlini salar, zərlərdən birini çəkər, əmr çıxarsa yerinə yetirər, nəhy çıxarsa etməzdilər, boş çıxarsa yenidən çəkərdilər. Quran bunu aşağıdakı ayə ilə qadağan etmişdir: **"Ey iman gətirənlər! Şərab da (içki də), qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız!" (əl-Maidə, 90).**

Müasir dövrdə ulduz falları

Bu gün geniş yayılan fal növlərindən biri də müasir cəhalətin inandığı ulduz falıdır. Göydəki bürclərdən istifadə edərək edilən bu falçılığın kökü Saabilərə dayanır. Saabilər İdris (ə.s.)ın möcüzəsi iddiası ilə səmanı on iki bürcə bölmüşlər və kainatdan yalnız sitayiş etdikləri və heykəllərini düzəltdikləri **"səbai"** planetlərin vəziyyətinə görə ulduzlarla bağlı bəzi hökmlər yazmışdılar. Onların bu inancları bu günümüzə qədər gəlib çıxmışdır. **(Elmalılı M.H.Yazır, "Haqq Dini, Quran dili, VII. 5208).**

Dinimizin qəti şəkildə qadağan etdiyi falçılıq müəyyən qədər qeybdən xəbər verməkdir. Halbuki, Qurani-Kərim qeybi Allahdan başqa heç bir kəsin bilmədiyini, hətta peyğəmbərlər və mələklər belə onlara vəhy edilmədikcə, qeybdən xəbər verə bilməyəcəklərini aydın şəkildə bildirir.

(Ya Rəsulum!) "De: "Allahdan başqa göylərdə və yerdə olan heç kəs qeybi bilməz!" (ən-Nəml, 65) və "De: Mən sizə demirəm ki, Allahın xəzinələri məndədir. Mən qeybi bilmirəm". (əl-Ənam, 50), "Əgər qeybi bilsəydim sözsüz ki, (özüm üçün) daha çox xeyir tədarük edərdim..." (əl-Araf, 188) ayələri buna yetərli dəlildir.

Bir də bunun cadu tərəfi var. Nədir

cadu? Necə ortaya çıxmışdır? Harut və Marut adlı iki mələkdən alınan gizli məlumatlardır! Dinimiz, sehr və cadu etməyi, insanların arasını vurmaq və zərər vermək üçün cadu yazmağı ən böyük günahlardan biri sayıb qadağan edir. Sehr və cadu vardır, haqdır və doğrudur.

Dinimiz, sehrin varlığını inkar etməmiş, lakin tövhid inancına zərər verdiyi, nəzarətin mümkün olmadığı və ümumilikdə pislik üçün istifadə edildiyi üçün qadağan etmişdir. Quranın ifadəsiylə qədim bir mədəniyyət mərkəzi olan Babil xalqından bəzi insanlar ilham yolu ilə Harut və Marut adlı iki mələkdən bəzi gizli məlumat və gözəl şeyər öyrəndilər. Ayədə Rəbbimiz buyurur: **"...Və onlar şeytanların Süleymanın mülkü əleyhinə oxuduqlarına uydular. Süleyman (bu kitablara uymadığı üçün) kafir olmadı, lakin şeytanlar (bildikləri) sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanları xalqa öyrədərək kafir oldular. Halbuki (o iki mələk): "Biz (Allah tərəfindən göndərilmiş) fitnəyik (imtahanıq, sınaq vasitəsiyik), sən, gəl, kafir olma!" – deməmiş heç kəsə sehr öyrətmirdilər. (Bununla belə yəhudilər) yenə də ər-arvad arasına nifaq salan işləri onlardan öyrəndilər. Lakin onlar (sehrbazlar) Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər. Onlar (yəhudilər) ancaq özlərinə faydası olmayan, zərər verən şeyləri öyrənirdilər. Həqiqətən, onlar belə şeyləri satın alanların (Allahın kitabını şeytan əməlləri ilə mübadilə edənlərin) axirətdə payı olmadığını yaxşı bilirlər. Kaş ki, onlar özlərini nə qədər yaramaz bir şeyə satdıqlarını biləydilər!"(əl-Bəqərə, 102)**

Bu mələklər insanları xəbərdar edir və: "*Biz ancaq sizi sınamaq üçün göndərildik. Əsla sehr edib inkar edənlərdən olmayın*"- demədən kimsəyə bir şey öyrətmirdilər. Lakin bu xəbərdarlıqlara rəğmən insanlar mələklərdən aldıqları bu bilikləri sehr yolunda istifadə etməyə başladılar. Tədricən başqalarına da öyrədərək sehr və cadunu kütləvi vəziyyətə çatdırdılar. Necə ki, dövrümüzdə icad edilən atom, dinamit, nüvə enerjisi kimi insanlığın faydasına qarşı olan elmi biliklərin daha sonralar müharibələrdə istifadə olunması kimi...

Hər hadisənin nizamı və idarəsi Allahın əlindədir. Buna görə, doğrudan da, Allaha sığınmalı və Ona yönəlməliyik.

Cadugərlərdən uzaq durun!

Məşhur təfsir alimi Elmalılı Hamdi Yazırın qeyd etdiyi kimi elmlər yaxşılığa istifadə edilirsə zahirdən əlac edilir, pisliyə istifadə edildiyi halda da əlacdan sehr əldə edilir. Ancaq insanlar hər hansı bir yoldan əldə etmiş olduqları bilikləri hər nə qədər sehr və cadu kimi zərərli işləərdə istifadə etsələr də, Quran ifadəsiylə: **"O sehri edənlər, Allahın izni olmadan heç kimsəyə zərər verə biləcək gücdə deyillər. Onlar beləcə ancaq özlərinə faydası olmayan zərər verən şeyləri öyrəndilər". (əl-Bəqərə, 102)**

Mərhum Elmalılı ayəni təfsir edərkən mövzuya belə açıqlıq gətirir və deyir: *"Sehr edərək ər-arvad arasına nifaq salanlar, bu qədər qüvvətli bir sevgi bağını qıranlar bir cəmiyyətə daha nələr* etməz

ki? Sehrin ən böyük təsiri ruh üzərindədir".

"Ölü (kəsilmədən ölüb murdar olmuş) heyvan, qan, donuz əti, Allahdan başqasının adı ilə (bismillah deyilmədən) kəsilmiş, boğulmuş, (küt alət və ya silahla) vurulmuş, (bir yerdən) yıxılaraq ölmüş, (başqa bir heyvanın buynuzu ilə) vurulub gəbərmiş, vəhşi heyvanlar tərəfindən parçalanıb yeyilmiş-canı çıxmamış kəsdiyiniz heyvanlar müstəsnadır, dikinə qoyulmuş daşlar (bütlər və ya Kəbənin ətrafındakı bütpərəst qurbangahlar) üzərində kəsilmiş heyvanlar və fal oxları ilə pay bölmək sizə haram edildi. Bunlar günahdır. Bu gün kafirlər dininizdən (onu məhv edə bilmədikləri üçün) əllərini üzdülər. Onlardan qorxmayın, Məndən qorxun! Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyəndim. Kim aclıq üzündən naçar qalarsa, günaha meyl etmək niyyətində olmayaraq (zəruri ehtiyacını ödəyəcək qədər bu haram ətlərdən yeyə bilər). Həqiqətən Allah bağışlayandır, rəhm edəndir!" (Maidə, 3)

Cadugərlər fikirləri pozar, əxlaqı pərişan edər, cəmiyyətin altını üstünə vurar. Bunun üçün sehrbazlardan və cadugərlərdən uzaq durmalı, heç bir şəkildə onlarla bir araya gəlməməliyik. Lakin nə qədər zərərli şeylər etsələr də Allahın izni olmadıqca heç kimə zərər verə bilməzlər. Çünki həqiqi təsir nə sehrdə, nə sehrbazda, nə də təbiətdə, nə ruhda, nə də yerdə, nə göydə, nə şeytanda, nə də mələkdədir. Əsl təsir gücü Allaha aiddir. Fayda və zərər deyilən şey də ancaq Onun izniylə meydana gəlir. O halda hər şeydən əvvəl Allahdan qorxmalı və Allaha sığınmalıdır və bunlara qarşı tab gətirmək üçün Allahın kitabına sarılmalıdır.

Sehr və cadu etmək, insanların arasını vurmaq və zərər vermək üçün musqa (dua-cadu) yazmaq İslama ziddir, haramdır, dinimizdə ən böyük günahlardan biri sayılır. Bunun üçün inanan bir insanın hər hansı bir problemini həll etmək üçün sehrbaza və cadugərə getməsinə icazə verilməmişdir. Kağız, musqa və cadu etmək qadağan edilmişdir. Bir yerdə musqa və buna bənzər cadu məmulatları tapılsa və görülsə belə hər şeydən tələşə və həyəcana düşməməli, ümidsizliyə qapılmamalıdır. Hələ üstəlik hər şeyi bilmə kimi bir xətaya da düşməməlidir.

Yaxşı bəs biz caduya qarşı nə etməliyik? Əlbəttə, tək sığınacağımız Rəbbimizə sığınaq. Çünki hər hadisənin nizamı və idarəsi Allahın əlindədir. Buna görə, doğrudan da, Allaha sığınmalı və Ona yönəlməliyik. əfsunçu bilginlərə (?!) gedib onlardan bir şey gözləmək, bir çarə üçün çarəsizlikdir, dərmandan daha çox dərdinə dərd qataqdır. Çünki çox vaxt işin istismarçısı və dəllalı olan bu insanlar insanın bədbinləşdirməkdən başqa bir şey etməzlər. Əgər bir rahatsızlıq, və ya psixoloji durum varsa həkimə müraciət etməli, müalicəni tərk etməməli, əlimiz də həmişə duaya açıq olmalıdır. Və Peyğəmbərimizin təcrübəsinə uyğun və tövsiyə etdiyi kimi, Fələk və Nas surələrilə birlikdə Ayətül-Kürsini mənəvi bir sipər və qoruyucu olaraq bilməlidir.

Xanım HƏMZƏYEVA

Mənəviyyatlı insan kimdir?

Çoxumuz: Mənəviyyat iç aləminə aiddir, onu kimsə bilə bilməz. Bir kimsəyə zahiri görünüşünə və davranışına görə onun mənəviyyatlı və ya mənəviyyatsız olduğunu demək doğru deyil – deyirik. Bu fikirlə razılaşmaq olar. Çünki Peyğəmbərimiz (s.ə.s.) səhabələrindən birinə, bir müşriki, qorxduğu üçün kəlimeyi şəhadət gətirdi deyə öldürdüyünə görə: *"Qəlbini yarıb baxdınmı?"*- buyurmuşdu. Əlbəttə ki, bu mövzumuzda, insanın, Rəbbini nə qədər sevib sevmədiyi üzərində durmayacağıq. Davranışlar üzərində duracağıq. Sadəcə onu vurğulamaq istəyirik ki, alimlərimiz Qurani-Kərimdə keçən **"müttəqi"** kəliməsini belə izah edirlər: *"Mən nə edim ki, Rəbbim məndən razı olsun"*. Burada təqvanın başqa bir tərifini də söyləmək yerinə düşər. *"Allahın sevgisini itirməkdən qorxmaq"*.

Əvvəla onu fikirləşmək lazımdır ki, bir insana, onun mənəviyyatlı və ya mənəviyyatsız olduğunu nəyə əsaslanaraq deyirik.

Psixologiyaya görə mənəviyyatlı insan:

"Sənə edilməsini istəmədiklərini, sənin də başqalarına etməməndir".

Peyğəmbərimizin (s.ə.s) in hədislərinə nəzər salaq.

"Müsəlman, əlindən və dilindən kimsənin zərər görmədiyi kimsədir".

" İnsanların ən xeyirlisi, insanlara ən faydalı olandır".

" İnsan özü üçün istədiyini, qardaşı üçün istəmədikcə həqiqi müsəlman ola bilməz".



"İnsan xarakterə vurğundur".

"Hal ilə təbliğ, qal ilə (diliylə) təbliğdən daha güclüdür" - deyir böyüklərimiz.

Kobud ifadələr işlədən insan düşünün. Kim onun ətrafına toplanar.

Demək ki, Rəbbimizin ayəsi və Peyğəmbərimizin hədisləriylə, psixologiyadakı mənəviyyatlı insan anlayışını qarşılaşdırdığımız zaman belə bir ifadə alınmış olur:

"İçimizdə olanların xaricə əks etməsi lazımdır".

Könül bağçamız həmişə bahar ətirli, güllü çiçəkli olsun. O bağçamızda heç vaxt payız və qış olmasın ki, oradakı gözəlliklər məhv olmasın. Rəbbimiz cümləmizin yardımçısı olsun!

MƏNƏVİYYAT

Mətanət KƏRİMOVA

KİM İDİ, KİM OLDU?!

Səhər yuxudan qalxıb, axşamdan oxuyub stolun üzərinə qoyduğu kitablarını çantasına qoydu. Dünənki günün yorğunluğu elə bil heç bədənindən çıxmamışdı. Orta məktəbin sonuncu sinfində oxuyurdu. Böyük adam olmaq istəyirdi. Onun üçün səhər-axşam çalışırdı. Həm məktəbə gedir, məktəbdən sonra da kasıb ailəsinə kömək məqsədi ilə günortadan sonra usta yanında fəhləlik edirdi. Anası xəstə olsa da, onun üçün səhər yeməyi hazırlayıb onu süfrəyə çağırdı. Ancaq onun heç yemək yeməyə iştahası yox idi. Sanki bütün dünyanın dərdi onun bədənindən taqətini almışdı.

- *"Yox, anacan, mən bir şey yeməyəcəyəm"*,-deyib çantasını götürdü. Anası ilə vidalaşıb məktəbə doğru yol aldı. Əksər sinif yoldaşları valideynlərinin maşınlarında məktəbə gəlir, o isə imkansızlıqdan avtobusa iyirmi qəpik verməyə çətinlik çəkirdi. Avtobus dayanacağında gözlədiyi vaxt və maşın tıxacları əksər vaxtlarda məktəbə gecikməsinə səbəb olurdu. Hər dərsə gecikdiyi gün də məktəbin müdir müavinindən töhmət alırdı. Məktəbdə kommunal xidmətlər və tələbə tədbirləri üçün yığılan pulları vaxtında çatdıra bilmədiyi üçün də tələbələrin və sinif rəhbərinin gözündə dəyərsiz insana çevrilmişdi.

Bazar ertəsi idi. İlk dərsin zəngi çalınmışdı. Bütün tələbələr siniflərə daxil olurdular. Hər kəsin üzərində yeni alınmış paltarlar sinifdə rəngarəng vəziyyət yaradırdı. Şagirdlər öz aralarında bir-birlərinin paltarının qiyməti ilə maraqlanır, telefonlarının modelləri ilə fəxr edirdilər. Sadəcə arxada bir qıraqda oturmuş biri də var idi ki, nə onun yeni paltarı, nə də yeni model telefonu var idi. Sakitcə bir qıraqda oturmuş, heç kim ilə ünsiyyət qurmurdu. Kimdən bir şey soruşub, bir şey istəsə o şəxs tərəfindən təhqir edilib lağa qoyulurdu. Hər kəs dərslər arasındakı tənəffüs vaxtlarında məktəbin yeməkxanasına gedib bir şeylər alıb yeyir, o isə kənarda durub onlara baxırdı.

Müəllim dərsə başlamışdı. Şagirdlər müəllimin suallarına cavab verməyə çalışır, arxada oturan şagird isə

Çalışaq heç kimi kasıblığına, acizliyinə görə təhqir etməyək. Bu gün var-dövləti, can sağlığını sənə bəxş edən Uca Yaradan, sabah bütün bunları səndən alıb başqasına verməyə də qadirdir. Heç bir şey əbədi deyildir. Hər qaranlığın bir işığı, hər işığın bir zülməti vardır.

fikirli-fikirli başını ovuclarına sıxmışdı. Şagirdlərin dərdi sadəcə dərs dərdi olduğu halda, onun dərdi başqa idi. Yüz fikir etsə də, bir işin öhdəsindən gələ bilmirdi. Sinifdə oturduğu bir dəqiqə, onun üçün bir saat qədər uzun gəlirdi. Birinci dərsin sonu idi. Uşaqlar zəngin səsini gözləyir, kitablarını yavaş-yavaş çantalarına qoyurdular. Elə bu zaman məktəbin növbətçisi qapını döyüb içəri girdi və həyəcanlı şəkildə müəllimdən arxada oturan tələbə üçün icazə istədi.

O, müəllimin icazəsi ilə sinifdən bayıra çıxdı. Sən demə onu məktəbin direktoru öz yanına çağırırdı. Qorxudan bədənini tər basmışdı. Həyəcanlı idi. Çünki oxuduğu illər ərzində rəhbərlik tərəfindən sadəcə pul gətirmədiyi üçün töhmət almışdı. Direktorun otağına girdiyi zaman direktor onu gülər üzlə qarşılayıb bağrına basdı.

- *"Oğlum, səni təbrik edirik sən bizim fəxrimizsən"*,- deyib qayğıkeşlik etdi.

Özü də təəccüblənmişdi. Görəsən nə baş verirdi? Elə bu an məktəb direktoru stolunun siyirməsindəki sənədləri götürüb ona tərəf uzatdı.

-Buyur, oğlum, götür. Sən bizim məktəbimizdən yeganə şagirdsən ki, universitetini xaricdə oxuyacaqsan. Bir neçə gün əvvəl xarici universitetlərə verilən imtahanların nəticələri bəlli olmuşdu. Hər zaman kasıbdır deyə insan yerinə qoyulmayan birisi, indi artıq bütün məktəbin iftixarına çevrilmişdir. O gün çox sevincli idi. Hər kəs onu təbrik edir, böyük adam olacağını deyirdilər. Bütün çətinliklər arxada qalmışdı artıq.

Xəstə ananın sevinci yerə-göyə sığmırdı. Min bir əziyyətlə böyütdüyü övladının ən xoş günlərinin şahidi olurdu. Uca Yaradana nə qədər şükür etsə də yenə də az olardı. Çünki bütün xəyalları gerçəyə çevrilmişdi. Ali təhsilini xarici dövlətdə bitirib gələn oğlu, indi öz vətənində adlı-sanlı insanlardan biridir. Orta məktəb illərində ona salam verməyən insanlar, indi onunla görüşmək üçün növbə gözləyirlər.

Bəli, budur yaşadığımız həyatın həqiqətləri. Çalışaq heç kimi kasıblığına, acizliyinə görə təhqir etməyək. Bu gün var-dövləti, can sağlığını sənə bəxş edən Uca Yaradan, sabah bütün bunları səndən alıb başqasına verməyə də qadirdir. Heç bir şey əbədi deyildir. Hər qaranlığın bir işığı, hər işığın bir zülməti vardır. Ömrünün aydınlığına qovuşmaq üçün həyatın zülmətlərində büdrəməmək lazımdır. Özündən var-dövlət, imkan baxımından aşağı olan insanlarla elə rəftar et ki, sabah o insanlardan asılı vəziyyətə düşdüyün zaman onlara deyəcək sözün, üzlərinə baxacaq üzün olsun.

Vüsalə QULİYEVA

GƏNCLƏRİ BİDƏTLƏRDƏN NECƏ QORUMAQ OLAR?

Dini təhsildə xüsusən gəncləri bidətdən necə qorumaq olar?

1. İslami təlim-tərbiyə ona hali olanların, dini doğru bilənlərin öhdəsinə verilməlidir. Cüzi bilik əldə edib daha sonra dini tədris etməklə uşaqların və yeniyetmələrin elm və mənəviyyatını paklamaq, təmizləmək əvəzinə, onların fikirlərini, dini görüşlərini zədələmiş olurlar. İnsanlara yolgöstərən, haqq yola istiqamətləndirən Allahın Rəsulu İslamı təbliğ edərək insanları pis əməllərdən təmizləyir, çəkindirirdi. Qurani-Kərimdə Allah Təala Hz. İbrahim Peyğəmbər (ə.s.)ın diliylə belə buyurmuşdur: (Onlar yenə dedilər:) **"Ey Rəbbimiz! Onların (nəslimizin) içərisindən özlərinə elə bir peyğəmbər göndər ki, Sənin ayələrini (hökmlərini) onlara oxusun, (Sən göndərən) Kitabı (Quranı) və (oradakı) hikməti onlara öyrətsin, onları (günahlardan) təmizləsin! Həqiqətən, Sən yenilməz qüvvət hikmət sahibisən". (əl-Bəqərə, 129)**

Dini bilik vermək, dini təlim etmək həssas bir prosesdir. Bu zaman bilik və təlim alanların yaş səviyyəsi, qavrama səviyyəsi, hətta xarakteri də diqqətə alınmalıdır. Dini tədris etmək, həkimlik, zərgər işi qədər diqqət və məsuliyyət tələb edir. Atalarımızın bu məsəli yerinə düşər: "*Yarım həkim candan edər, yarım müəllim dindən*". Bu mənada dini tədrisi ilahiyyat elmini, əsas dini bilikləri, İslam ehkamlarını doğru biləne vermək, dini təlimi hər sənətdə olduğu kimi işi biləndən öyrənmək lazımdır.

2. Allah Təala nə əmr etmişsə, Hz. Peyğəmbər (s.ə.s.) hansı yolu qoyub getmişsə hər kəs də bu yola doğru bir şəkildə yönəldilməlidir. Dini təlim tərbiyə zamanı uşaq, yeniyetmə və gənclər dini bilikləri lazımi səviyyədə öyrənərlərsə bidət olan şeylərə, dinimizə aid olmayan, dinimizə zidd olan adətlərə zehnlərində yer qalmaz. Uşaqlara yalnız əsas dini bilikləri verməklə onları bidət və bu kimi zərərli təsirlərdən qorumaq olar. Hz. Peğəmbər bir hədisində buyurmuşdur: "*Kim mənim sünnəmi ehya edərək insanların onunla əməl etmələrinə vəsilə olsa, o insanların*

qazanacağı savablardan heç bir şey azaltmadan onların savablarının bir qatını almış olacaqır. Kim də bir bidət icad edərək onunla əməl edilməsinə səbəb *olursa o bidət ilə əməl edənlərin yüksələcəyi günahlardan heç bir şey azaltmadan onların günahlarının bir qatını yüklənmiş olacaqlar!"* **(İbn Macə, Müqəddimə, 15)**

Ümumiyyətlə uşaqların beynləri və qəlbləri ağ kağız kimidir, nə yazarsan o da həkk olar, onlara nəyi öyrədərsən ona inanıb onu təqlid edərlər. Odur ki, uşaqların, yeniyetmələrin dinə olan ehtiyaclarını sui-istifadə ilə İslamda əsası olmayan biliklərlə ödəmək, onları yanlış istiqamətə sürükləyər, dində ifratçılıq yaranar. Bu ifratçılıq nəinki yeniyetmələr və gəncləri, hətta böyükləri də dinin özündən və həqiqətlərindən uzaqlaşdırar, yanlış dini təlim Peyğəmbərimizin bir hədisində: **"Asanlaşdırın, çətinləşdirməyin"** buyurduğu prinsiplərdən çıxıb, nifrət edilən mövqeyə girər. Hz. Peyğəmbər (s.ə.s.) bizə dişimizlə tutacağımız miras qoyduğu hədisi–şəriflər və sünnəsində, tətbiqatlarında bizi bu həddə gətirə biləcək ifratçılıqdan, əsası olmayan və dinlə əlaqəsi olmayan yeniliklərdən qorumaq üçün dönə-dönə xəbərdar etmiş, *"Məndən sonra mənim raşidi-xəlifələrimdən və sünnəmdən bərk-bərk, hətta dişlərinizlə yapışın"*,- deməsi bu işin nə qədər ciddi olduğunu, bidətlərin necə yanlış olduğunu insana dərk etdirir.

Hz. Peyğəmbər (s.ə.s.) bütün din təlimçilərinə təqib edəcəkləri ən gözəl yolu bəxş etmişdir: *"Asanlaşdırı, çətinləşdirməyin, müjdələyin, nifrət etdirməyin"*. **(Buxari, elm, 12, Edeb, 8).** Bu mənada sabahımız olan gəncləri çox, lakin mənasız, faydası olmayan elmlə yükləməklə deyil, az, lakin ardıcıl, təmiz, səlim, doğru biliklərlə addımlamasına kömək edək. Faydasız, dinə zidd olan, islamla heç bir əlaqəsi olmayan adət və ənənələr, sxolastik biliklər, batil inanclar, bidət və xurafatlar insana yalnız zərər gətirər. Ölmüş insanların adına qurban kəsmək, pirlərə və ocaqlara gedib orada qəbr ətrfında təfav etmək, ölmüş insandan yardım istəmək, mədət ummaq, insanları ilahiləşdirmək, başqa insanların xətrinə, hörmətinə diləklərin qəbul olunmasını söyləmək, müqəddəsdir deyib məscidlərdə, ziyarətgahlarda daş-torpağı öpmək və s. bu kimi dinlə əlaqəsi olamayan adətlər Qurani-Kərimin açıq ayələrinə və dinimizə zidd olan günah əməllərdir, bunlardan uzaq olmaq evdə, cəmiyyətdə, əsasən də uşaq və yeniyetmələrin yanında bunları nəinki tətbiq edib onlarda yanlış dini biliklər formalaşdırmaq əvəzinə, onların xurafat olmasından bəhs etmək hər birimizin vəzifəsidir.

Uşaqların beynləri və qəlbləri ağ kağız kimidir, nə yazarsan o da həkk olar, onlara nəyi öyrədərsən ona inanıb onu təqlid edərlər.

Beynimizi Haqqın razı qaldığı biliklərlə, qəlbimizi həqiqi İslami inanclarla, sevgiylə, imanla nurlandıraq.

Dr. Nailə SÜLEYMANOVA

İslamın "Dində məcburiyyət yoxdur" hökmü haqqında

Bu gün dünyamızda dini məcbur edənlərin zülmü ilə yanaşı Allahın bəyanını dəyişdirib və ya mənasını kiçildib öz şəxsi düşüncələrini islamın əmri kimi göstərənlərin zülmü də vardır. Dinini bilməyən bu zalimlər, alim donuna girib öz arzularına uyğun olaraq Quran ayələrini təfsir edir, İslam pərdəsi altında başqa bir din yaratmağa çalışırlar. Öz savadsız fikirlərini cəmiyyətə zorla qəbul etdirmək istəyənlərin bu yolda son cəhdi İslamın **"Dində məcburiyyət yoxdur"** hökmünə yönəlmişdir. Allahın bu əmrini ancaq İslama aid edən belə uğursuz dinşünaslar müsəlmanlara İslamın əmrlərini arzuladıqları kimi yanaşmağı da tövsiyə edirlər.

"Dində məcburiyyət yoxdur" hökmünü doğru anlamaq üçün izahına əvvəlcə ondan başlayaq ki, Allah Təala dinini təbliğ etmək üçün yer üzündə peyğəmbərlər seçmişdir. Qurani-Kərimin ayəsi bunu belə bəyan edir: **"Peyğəmbərlərin üzərinə düşən vəzifə isə ancaq (Allahın əmrlərini insanlara) təbliğ etməkdir..."(Maidə, 99)**

Dini qəbul etdirmək isə Allahın əlindədir: **"(Ya Rəsulum) Şübhəsiz ki, sən istədiyini doğru yola yönəldə bilməzsən. Amma Allah dilədiyini doğru yola salar. Doğru yolda olacaq kəsləri daha yaxşı O bilir! (Və buna görə də onları haqq yola müvəffəq edir!)". (Qəsəs, 56)**

Ayələrdən aydındır ki, dində məcburiyyət qanunu yoxdur, Allah dini yer üzünə zor ilə deyil, könül razılığı ilə seçmək üçün göndərmişdir. İnsanın bu gözəl yolda, iman yolunda ən böyük yardımçıları məhz peyğəmbərlərdir. Allah Peyğəmbərlərinə dinin məcburiyyətini deyil, sevgisini, təbliğini və təklifini əmr etmişdir.

Məcburiyyətin olduğu yerdə dinin əsası olan iman dildə yaranır. İmanın ancaq qəlblərdəki təsdiqi insanı həqiqi dindar edə bilər. Demək, insan ağıl və iradəsi ilə iman etməlidir. İman və iradə insanı bütün canlılardan fərqləndirən və güclü edən bir ilahi nemətdir. Bu nemətlərin şükrünü anlamayanı zor ilə dildə imana gətirmək onun özünə faydası olmadığı kimi, dünya üçün də bir bəladır.

Dinin insanoğlu tərəfindən öz arzusu və düşüncəsi ilə məcburiyyətsiz seçmək hökmü Qurani-Kərimdə belə bəyan olunur: **"Dində məcburiyyət (zorakılıq) yoxdur. Artıq doğruluq (iman) azğınlıqdan (küfrdən) ayırd edildi. Hər kəs Tağutu (Şeytanı və ya bütləri) inkar edib Allaha iman gətirərsə, o, artıq (qırılmaq bilməyən) ən möhkəm bir ipdən (dəstəkdən) yapışmış olur. Allah (hər şeyi olduğu kimi) eşidəndir və biləndir!". (Bəqərə, 256)**

Göründüyü kimi, ayədə Allah əmr edir ki, dini seçmə yolunda məcburiyyət yoxdur. Yəni heç kim digərinə dinini dəyişməyə və ya dini qəbul etdirməyə məcbur edə bilməz. İslam dini ilə gələn bu əmrdə Allah kafirliyi seçən insana belə məcburiyyətin tətbiqini qadağan edir. Dini məcburiyyət olan yerdə isə həm də dini əmrlərin əsası olan ixlasdan söz edilə bilməz.

İslamın bu hökmünə müsəlmanlar bütün tarix boyunca riayət etmişlər. Fəthlər İslam dövlətinin sərhədlərini genişləndirərək onu güclü bir dövlətə çevirirdi. Lakin heç bir ölkədə zor ilə İslam dininin qəbul edilməsinə yol verilməmişdir. İslamın hökmlərinə görə dinindən və mənsubiyyətindən asılı olmayaraq hər kəsə sərbəst yaşamaq haqqı verilir. Qədim dövrlərdə İslam dövlətlərinin ərazisində yaşayan qeyri müsəlmanlar vergi vermək şərti ilə dinini dəyişmədən yaşamaq imkanına sahib olmuşlar.

Yuxarıdakı ayənin ikinci ifadəsində Allah Təala artıq haqq ilə batil, şər ilə xeyrin ayrıldığını bəyan edir. Yəni peyğəmbərlər elm və əmələ aid dəlillər ilə gəlmişlər. İslamın bu hökmünə görə dinin insanlara verə biləcək bütün nemətləri aydınlaşdırılmışdır. Məcburiyyət üçün heç bir səbəb yoxdur, çünkü imanın mükafatı, küfrün cəzası da artıq təyin edilmişdir. Əksinə olaraq

İslam Allaha bir təslimiyyətdir ki, bu isə istər ibadət, istərsə də əxlaq qayda-qanunları haqqında olan əmrlərin yerinə yetirilməsi ilə ola bilər.

dini məcburiyyətdən qorumaq üçün Allah yer üzündə bir çox hadisələr varid etmişdir. Bunlar vasitəsilə inanan insan Quranın hökmünə əsasən yaratdıqları tanrılardan qoparaq möhkəm, qopmayan bir ipdən yapışmış olur. Lakin bu iman ancaq sözdə və qəlbdə qalmamalıdır, əməllərlə birləşməlidir. Çünki Allah hər şeyi eşidən və biləndir. O həm əməlləri görür, həm də qəlblərdəki niyyətlərdən xəbərdar olur.

Ağıl və iradəsi ilə müsəlman olanlar **"dində məcburiyyət yoxdur"** hökmünə görə onlar istədikləri kimi deyil, İslamın əmr etdiyi şəkildə və qanunlarına riayət etməli, sərbəst iradə ilə, heç bir məcburiyyətə uğramadan bu dinin əmrlərini də yaşamalıdır. İslam həm də sərbəst könüllü olaraq qazanılan bir müsəlman adından ibarət deyildir. İslam Allaha bir təslimiyyətdir ki, bu isə istər ibadət, istərsə də əxlaq qayda-qanunları haqqında olan əmrlərin yerinə yetirilməsi ilə ola bilər. Əlbəttə ki, bu əmrlərdən olan namaz, oruc, zəkat və s. yerinə yetirilməsində güc tədbiq edilə bilməz. Lakin unutmamaq lazımdır ki, məcburiyyətin olmadığı, könül dini olan İslamda bu əmrlərin yerinə yetirilməməsinin mənəvi, maddi və fiziki cəzaları haqqında Qurani Kərimdə açıq bəyanlar vardır.

Qəlblərimiz İslam sevgisiylə döyünsün, əməllərimiz Quran hökmlərinə uysun, niyyətlərmiz imanlı olsun. Amin!

Qızyetər PİRİYEVA

BAĞBANIN ŞƏFQƏTİ

Padşahın bağında gül olmaq çox böyük bir xoşbəxtlikdir, bəxtiyarlıqdır. Hər səhər bağbanın o şəfqət dolu baxışlarını seyr etmək, onun nur üzündən axan damlalarla qidalanmaq, sulanmaq.

Günəş işığı hər yeri aydınlatdığı kimi onun baxışları da vücudumuzun ən xırda və incə damlalarına qədər işləməkdədir.

Bağın təmizliyini və təmizlənməsinə diqqət edən bağban, heç kimin şirin yuxularından oyanmadığı zaman bağa gələr, bağa ziyan vuran yabanı otları təmizləyər. Çünki səhərlər torpaq şehli olduğundan yumşaq olur, otları təmizləmək asan olur. Amma günəş doğduqda onun istiliyindən torpaq sərtləşir. Torpaqda əmələ gələn tikanlı otları çıxartmaq çətinləşir.

İllərdir eyni fədakarlıqla bağban vəzifəsini bezmədən, sevə-sevə davam edir. Bağa hər girdikdə səbirlə o tumurcuqları, çiçəkləri təmizləməyə başlayar. Təmizlədikdə o mübarək əllərinə gülün tikanlarından batdığı zaman da olur. Amma yenə də eyni həyəcanla, sevgi ilə vəzifəsini görər. Bu əziyyətə, zəhmətə nə üçün qatlandığını bilirsinizmi?

Çünki bu büllur kimi şəffaf, təmiz nazənin gülləri Padşaha verəcəkdir.

Mən aciz də bu mübarək bağçanın bir gülüyəm. Gül niyyəti ilə əkilən, amma illərdir çiçəklənməkdən məhrum olan...

Öz qabiliyyətsizliyimdən ötrü bağbanın zəhmət çəkdiyi, ümidlə gözlədiyi o günə mən də həsrətəm.

Öz halıma görə çox kədərlənirəm. Bəzən qəflətimdən acizliyimi unuduram və bəhanələr gətirirəm: *"Yar-*

paqlarımın çoxluğundan çiçək açmıram və yaxud da güc-qüvvətim köküməgedir. Köküm qüvvətlidir. Necə də olsa hara yapışdığımı bilirəm, asan-asan qopmaram”, -deyib özümü aldadıram.

Amma son günlərdir əcaib bir qorxu düşüb canıma. Bir gün olar ki, bağbanın səbri tükənib: “*Bu gül olub güldən deyil, tikan olub tikandan deyil, ikisinin ortası. Nə işə yarayır, heç səyi də yoxdur, qırıb atma vaxtı gəldi*” ,-deyərsə, yaxud da: *“Padşaha güllərini vermə vaxtı gəldi”* deyərsə, mənim halım nə olar? Əfsus... Əllərim bomboş Padşahın hüzuruna necə çıxaram. Bəs bağbanın haqqını, zəhmətini necə ödəyərəm?

Ey Allahım, nə olar bağbanın qəlbinə ilham ver ki, mən acizi qırıb atmasın. Onun qəlbində mənə də yer eylə. Axı mən də o bağçadanam. Suyundan, havasından, ətrindən nəsibimiz var.

Dünyadakı cənnət bağçasında olub dəyərini bilməyənləri, bilənlərin hörmətinə bağışladığın kimi, bu bağçamız hörmətinə məni də bu mühitdən ayırma.

Ətrini ətrafa yayan o güllər qədər, mən də, bəlkə də, onu lap çox sevirəm.

Ey Allahım, mənə güc-qüvvət nəsib et ki, çiçəklənim. Bağbanın zəhməti hədər getməsin. Onu xəcalətli etməkdən sənə sığınıram.

Amin!..

Çiçək fəlsəfəsi

Əhməd QƏŞƏMOĞLU

Çiçəklikdə çiçək yığan,
Mən də burdan söz yığıram.
Hər çiçəyin eyhamından
Ürəyimə köz yığıram.

Gözəllik Allah ülgüsü,
İlahinin bir bəlgəsi,
Şeirim xəyal hörgüsü -
Tanrım bax gör, düz yığıram?

Bir ahəng var hər çiçəkdə,
Yol göstərir, hər çiçək də…
Həyat adlı bu gerçəkdə
Düz getməyə iz yığıram.

Hatice ŞAHİN

NİYYƏT XEYİR İSƏ AQİBƏT DƏ XEYİR OLUR

Din alimləri Allahın həm kainatdakı, həm də Qurandakı ayələrini şərh edərkən inkişaf edən texnologiyadan faydalanırlar. Çünki insan bir çox hadisəni şəxsi nümunələrlə daha yaxşı başa düşür. **"Harada olsanız olun Allah sizinlə bərabərdir"** ayəsiylə hər an ilahi kamera altında olduğumuza inanırıq. Bu inancımıza uyğun olaraq nəfsimizə xoş gələn bir çox şeyləri tərk edirik. Əlimizdən salmadığımız, hardasa az qala hər bucağı çəkməyə çalışdığımız kamera və ya telefon çəkilişləri ilə bu ayəyə imanımız bir az da artar. Son texnologiya elə mərhələyə çatmışdır ki, insanı əhatə edən auranı da göstərən kameralar icad edilmişdir. Hətta hər kəsin bildiyi yalan maşınları insanları ilk vaxtlarda heyrətə salarkən, indi adiləşmişdir. Allah Təalanın elm sifətinin bir əsəri olan və bu sifətlə kəşflər edən insanlıq tədricən ilahi kamera çəkilişlərinə çatarmı bilmirəm.) Çünki televiziya icad edildikdə elm adamları bu dünyanın tapdığı son kəşfdir, bundan sonra belə bir kəşf əsla olmaz demişdilər. Heç əlli-yüz il keçmədən internet icad olmuş və üzərindən uzun zaman keçmədən internet və telefon vasitəsilə olduğumuz yerdən minlərlə kilometr uzaqlarda olan yaxınlarımızla görüntülü olaraq rahatlıqla əlaqə qurma imkanı meydana gəlmişdir.



İlahi kamera elə çəkilişlər edər ki, insanın bədənindən daha çox onun hisslərini, niyyətlərini göstərər. Osman Nuri Topbaş əfəndi söhbətlərinin birində: *"Sabahsız kimsə yoxdur, hər kəsin sabahı vardır. Bu ilahi kamera görüntülərini istisnasız hər kəs sabahında (məhşər günü) izləyəcək"*, - demişdir. O görüntülərdə hər kəs niyyətini görəcək. Bu ayə sabahımız üçün qüvvətli bir dəlildir: **"Kim zərrə qədər xeyir işlərsə, qarşılığını görər, kim də zərrə qədər şər işlərsə, qarşılığını görər". (Zilzal, 7-8)**

İmanları kamil Haqqın sevimli qulları isə inkişaf etmiş texnoloji nümunələrə ehtiyac duymadan, bu ayələrə zərrə qədər şübhə etmədən: **"Səmina və ətanə - eşitdik və itaət etdik",**- demişlər. Niyyətlərin ortaya qoyulacağı günün dəhşətindən qorxduqları üçün yemə-içmələrini belə gözəl niyyətlər etmişlər.

Canlı nümunələr hər vaxt dərk edən-

lərə təsir edər. Mən də yazımda yaşanmış iki hekayəni sizinlə paylaşmaq istədim. (Birincisi Ustad Əli Ülvi **"Qurucu Xatirə idi"** adlı kitabdan: Peyğəmbər aşiqi Əli Ülvi əfəndi Əl-Əsr surəsini oxuyarkən özü ilə yoldaşları arasında keçən bir hadisədir.)

Əli Yaqub bəyin çox saf ürəyi vardır. Bir gün Əli Ülvi bəyin otağına gedir, onlar da Mustafa Runyun bəylə yatağın altından qazyağı tənəkəsini çıxarır və elektrik olmadığı üçün neft lampasının şüşəsinə qaz doldurarlar. Əli Yaqub bəy içəri girincə:

- O nədir? Zəmzəmmi? Əli Ülvi bəy zarafatla:

- Bəli, - deyir.

- Eşq olsun! Bir tənəkə Zəmzəmin olsun, bir stəkanını bizdən əsirgə!

-Stəkan gətirdin ki, vermədik?

Stəkanı götürüb dərhal gəlir, Əli Ülvi bəy stəkanı zarafatla doldurur. Zəmzəm duasını oxuyaraq qibləyə dönər və bir qurtumda bitirər. Yanındakılar çaşmışdır. Əli Yaqub bəy:

- Bundan neft iyi gəlir, çox qalmış,- deyir. Mustafa Runyun bəy:

- Neft içdinmi yoxsa?- deyir.

Əli Ülvi bəy:

-İstər neft olsun, istər Zəmzəm… Sən nə niyyətinə içdinsə, onun savabını alarsan.

Əli Yaqub bəy bir neçə gün sonra otaqlarını təkrar ziyarət edər. Əli Ülvi bəyə:

-Sənin verdiyin təqlid zəmzəm gəncliyimdən bəri məndə olan hemoroit narahatlığımı keçirdi,- deyir. Sonra belə əlavə edir:

-Bizim bu təqlid imanlarımız bunu etsə, səhabələrin imanı necədir? (Dəri 1, səhifə 304)

İkinci nümunə də yenə eyni kitabdan:

Fəhmi Əfəndi adında Konyalı şəxs vardır. Bu şəxs ikramı çox sevər. Minada öz çadırının yanına bir də qonaqlar üçün ayrı bir çadır qurdurur. Şamlı səkkiz-on dərviş Ustadı ziyarət edib duasını almaq üçün gəlir. Dərhal yeməyin yanına salat düzəltdirərək yemək ikram edilir. Yeməklər ortaya qoyulur. Hər kəs yeməyə başlayınca salat köpürməyə başlar. Əli Ülvi bəy:

-Həzrət, bu köpürmə təbii bir köpürmə deyil. Əgər ilahi bir şey isə ona qarışa bilmərəm, amma dünyəvi bir hal isə bunun qarşısını alaq.

Dərhal Fəhmi Əfəndi hazırlayanlardan soruşur ki, salata nə qatdınız? Onlar da göstərir. Duzla birlikdə eyni torbaya xanımı yuyucu qoymuşdur, hadisə aydın olur. Dərvişlərə söyləsələr də onlar:

-Biz bura yuyunmağa gəldik. İçimiz, çölümüz yuyunacaq. Şəfadır, inşallah deyib, gözəlcə yeyirlər, heç bir şey də olmur. Fəhmi Əfəndi:

-Kimsədən bir şikayət duymadıq. Demək ki, niyyətləri yuyucudan daha qüvvətliymiş, deyir.

Niyyət xeyir isə aqibət də xeyir olur. Demək ki, niyyətlər gözəl olunca işin sonunda gözəlliklər insanı gözləyir.

Sabahsız kimsə yoxdur, hər kəsin sabahı vardır. Bu ilahi kamera görüntülərini istisnasız hər kəs sabahında (məhşər günü) izləyəcək.

BİR KUZƏ SU



“Gözəllər saf və bərraq ayna aradıqları kimi, comərdlik də fəqir və zəif kimsələri istər.
Gözəllərin üzü aynada gözəl görünər;inam və ehsanın gözəlliyi isə fəqir və qəriblərlə ortaya çıxar.”

Həzrət Mövlana

Çölün ortasında yoxsul bir bədəvi çadırda xanımı ilə yaşayırdı. Bir gecə xanımı:

“- Bütün yoxsulluğu, cəfanı biz çəkirik. Hər kəsin ömrü sərvət içində firavanlıqla keçir. Sadəcə biz fəqirik. Çörəyimiz yox, qatığımız yox. Kuzəmiz yox, suyumuz göz yaşı... Gündüzlər libasımız Günəş; gecələr döşək və yorğanımız Ay işığı. Aclıqdan bədirlənmiş Ayı fətir sayırıq, iştahamız ora hücum çəkir... Bizim bu ağlar halımız nə vaxtacan belə davam edəcək?..”- deyə şikayət etdi.

Bədəvi belə cavab verdi:

“- Ay arvad, axı nə zamanacan dünya malından ötrü həm özünü, həm də məni üzəcəksən? Bu dünyada, bir düşün, nə qədər ömrümüz qaldı? Ağlı başında olan kimsələr bu dünyanın azına, çoxuna baxmaz”.

Bil ki, könüllərimizdə olan dünyanın kədər və qəmləri, ancaq bizim varlığımızın ehtiras tozundan, aşırı arzularımızdan meydana gəlməkdədir. Allahın mülkündə yaşayırıq və Onun verdiyi ruzi ilə qidalanırıq. Qənaətdən daha gözəl bir zənginlik varmı? “**Bu belə, o elə”** demək, şeytanın içimizə saldığı şübhə və vəsvəsələrdən başqa bir şey deyil.

Ey xanım! Bolluğa alışmaq qədər

pis şey yoxdur. Çünki alışılan şeylərdən ayrılmaq çox çətindir. Bədəninə tapan, yəni nəfsinin hər arzusunu yerinə gətirən kimsənin canı o an əzizləşər. Vaxtı gəlib onu təslim edərkən çox çətinlik çəkər. Sən bunu dərk et və başına gələcək olanı çətinləşdirmə!

Gəncliyində daha çox qənaətkar idin. Yaşlandıqca ehtirasın artdı, acgöz olmağa başladın. İndi qızıl istəyirsən. Halbuki əvvəllər özün qızıl idin. Nə oldu sənə?

Xanımın təsəlli dinləməyə səbri qalmamışdı. Üstəlik, getdikcə çılğınlaşırdı:

–Ey namusdan başqa bir şeyi olmayan lüt-üryan adam! Artıq sənin boş təsəllilərindən bezdim. Halımıza bax və utan! Mənə qənaətdən dəm vurursan. Nə vaxtadək bu boş sözlərlə zəhləmi tökəcəksən? Qənaət nə zaman bir insanın canını nurlandırdı ki, səni də ağ günə çıxarsın? Əl çək bunlardan! Dünyada özünə bir gün ağlamağa çalış!..

Bədəvi təmkinlə cavab verdi:

- Sən qadınsan, yoxsa dərd tuluğu? Nə istəyirsən məndən? Mən yoxsulluğumla iftixar edirəm. Fəqirliyimi başıma qaxma! Mal, mülk və pul-para başda papaq kimidir. Papağa sığınan keçəldir. Zəngin qulağınacan, burnunun ucunacan ayıb içinə dalmış zavallıdır. Eyiblərini zahirən malı örtər. Yoxsulluq sənin anlayacağın şey deyildir. Peyğəmbərlərin və vəlilərin nemət bildikləri fəqirliyə xor baxma. Allaha çox şükür, mənim dünya malına qarşı zərrə qədər tamahım yoxdur. Könlümdə qənaətdən bir aləm var. Ey qadın! Qovğanı, darılmanı burax! Onu buraxmırsansa, barı məni burax! Mənim qovğa etməyə taqətim yoxdur. Qovğa mənim işim deyil! Savaşlar bir yana dursun, könlüm barışlardan da ürkük... Susacaqsansa, nə əla! Əgər susmazsan, başımı alıb yanından ilim-ilim itərəm.

Qadın ərindən bu cür qətiyyəti gözləmirdi. İşin başqa şəkil aldığını görüb, zar-zar ağlamağa başladı. Dediklərinə peşman oldu:

"-Mən xanım deyil sənin ayağının torpağıyam. Bədənim, canım, varım və yoxum hamısı sənindir. Sənin üçün bir kərə deyil, hər nəfsdə təkrar-təkrar ölərəm. Sənin mənə söylədiyin şeylər qarşısında artıq candan da vücuddan da vaz keçdim.

Nə üçün ayrılıqdan söz edirsən? Bax, etirazı və qınamağı tərk etdim; çox üzr istəyirəm. Sənin padşahsayağı xasiyyətini tanıya bilməyib ədəbsizlik etmişəm. Amma indi böyük peşmanlıqla sənə boynumu uzadıram; istəsən vur, istəsən məni ayağının altına al!" –dedi.

Ardından hıçqırıqlarla ağlamağa davam etdi. O göz yaşı yağmuru arasında bir şimşək çaxdı və o şimşəkdən vəfakar bədəvinin könlünə bir qığılcım düşdü. Bədəvi, arvadın gözyaşlarına dayana bilmədi. Dərhal yumşaldı. Onun bu halını sezən dünyapərəst arvad indi də ərinin başına ayrı ağıl qoymağa girişdi:

-Kuzəmizdə yağış suyu var. Olanı-

mız - qalanımız bundan ibarətdir. Bu kuzəni götür, padşahlar - padşahının hüzuruna get, ərməğan kimi bunu ona ver. De ki:

"Bizim bundan başqa heç nəyimiz yoxdur. Çöldə də, bundan yaxşı bir nemət əldə etmək mümkün deyil. Padşahımızın xəzinələri varsa da, bunun kimi suyu yoxdur. Bunun misli az tapılar..."

Zavallı qadın Bağdadın ortasından şəkər kimi Dəclə çayının çağlaya-çağlaya axıb getməkdə olduğunu nə bilsin. Ona görə də kuzədəki yağış suyunu öyüb dururdu.

Arvadın tərifi bədəviyə də təsir etdi. Ağlı kəsdi ki, bundan yaxşı ərməğan tapmaq mümkün deyil; padşaha layiq bir nemətdir!

Bədəvi bu xəyalla kuzəsini bir keçəyə sardı, ağzını kip bağladı. Çiyninə alıb, Bağdad yoluna düşdü. Kuzə qırılmasın, oğrular oğramasın deyə gecə-gündüz onu gözbəbəyi kimi qorudu.

Uzun yolçuluqdan və min bir əzab-əziyyətdən sonra, axır ki, gəlib Bağdada yetişdi. Soruşa-soruşa xəlifənin sarayını tapdı. Qapını kəsdirib durdu. Keşikçilər nə istədiyini soruşdular. Bədəvi məramını dilə gətirdi:

- Ey mötəbər insanlar! Mən qərib bir bədəviyəm. Padşahın lütfünü umaraq çöllərdən burayacan gəldim. Bu ərməğanımı o sultana yetirin; padşahdan murad diləyəni ehtiyacdan qurtarın! Dadlı-ləzzətli su! Çöldə yağmur sularından əmələ gəlmiş göldən doldurmuşam. Kuzəm də gözəl, təp-təzə..."-dedi.

Xəlifənin adamları bu saf ürəkli bədəviyə əvvəlcə gülüşdülər. Sonra da onun bu xoş niyyətlə bağlanıb-bəzənmiş ərmağanını canla-başla qəbul etdilər. Bədəvi hələ də sarayın altından şırıl-şırıl axan Dəclədən, onun dirilik suyundan xəbərsiz halda gözləməkdə idi.

Bədəvinin kuzəsi xəlifəyə təqdim edildi. Padşah bu sadəlövh və təmiz ürəkli adamın ehtiramından çox xoşhal oldu. Onu hüzuruna çağırtdırdı. Könlünü aldı. Əvvəlcə ona təzə şahanə libas geydirdi. Sonra adamlarına əmr elədi:

–Kuzəni boşaldın və qızılla doldurub ona verin. Evinə qayıdarkən də gəmi ilə Dəclədən yola salın. O, çöl yolu ilə əzab-əziyyətlə buraya gəlib. Dəclə yolu daha yaxındır.

Bədəvi gəmiyə minib Dəcləni görüncə büsbütün çaşıb qaldı. Əlbəttə, ən böyük çaşqınlığı bu qədər bolsulu Dəclə varkən xəlifənin bir kuzə çöl suyunu qəbul etməsiydi. Bədəvi əllərini göyə açıb Rəbbinə şükür edirdi.

MƏSNƏVİ:

"Ey oğul! Bütün dünyanı ağzına qədər elmlə, gözəlliklə dolu kuzə bil. Fəqət unutma ki, Allahın Dəcləsindən bir qətrədir. O, gizli bir xəzinəydi. Bilinməsinə məhəbbət etdi. Dopdolu olduğundan kuzə çat verdi, xəzinə ortaya

Mömin olan kimsə nə qədər elm, irfan, mal-mülk və ibadət sahibi olur-olsun, bu məziyyət və imkanlarına güvənib aldanmamalıdır.

çıxdı. Torpağı göylərdən daha parlaq bir hala gətirdi. Gizli xəzinə ikən, birdən-birə coşdu; torpağı, atlasdan libas geyən bir sultan görkəminə gətirdi. O bədəvi, Allahın Dəcləsindən bir qətrəni görsəydi, əslində bir dəniz olan o qətrənin önündə kuzəsini atardı...”

Hekayədə bədəvi ağlın, xanımı isə nəfsin simvoludur. Ağıl ilə nəfs hər zaman bir-birinə qarşı mücadilə halındadır. Bunların hər ikisi də torpaqdan hazırlanan bədən mülkündə otururlar. Gecə-gündüz daim qovğa halındadırlar. Nəfsin simvolu olan qadın bədənin ehtiyaclarını ortaya qoyaraq şərəf, vəzifə, tərif, geyim və ləzzətli yeməklər istər. Bəzən bu ehtiyaclarına çarə tapa bilmək üçün sadələşir və təvazökarlıq göstərir. Bəzən üzünü torpağa sürtən, özünə yazıq görkəm verir, bəzən də qürürlanır və zirvələr arayar.

Ancaq “varlıq kuzəsini” daşa vura bilən Haqq aşiqləri, kuzəni qırmaqla onu daha sağlam və daha mükəmməl hala gətirər və kölgə olan varlıqlarının əsarətindən qurtularlar.

Ağıl isə bədənə aid düşüncələrdən xəbərsizdir. Onun təfəkküründə ancaq Allah sevgisi və məhəbbəti vardır. O, sevgisini itirmə qorxusu və hüznü içindədir.

Hekayədəki xəlifə Rəbbin elminin sonsuzluq Dəcləsidir. Dəclə çayından xəbərsiz olaraq ora bir kuzə yağış suyu aparan bədəvi, bu işdə məzurdur. Dəclədən çox uzaqlarda, bir səhrada yaşayırdı. Əgər Dəclədən xəbərdar olsaydı o kuzəni səhrada gəzdirməz, bəlkə də onu daşlara çırparaq qırardı. Yəni **“mutu qablə ən təmutu”** sirrinə nail ola bilmək üçün nəfsini təmizləməyə, qəlbini isə saflaşdırmağa çalışaraq ilahi hesab içərisində Dəclədən xəbərdar olmağa çalışardı.

Nəfsi təmsil edən qadınla ağlı təmsil edən bədəvi, əsil qiymət və ilahi ləzzətin vücud kuzəsindəki irfan suyunda olduğundan xəbərsiz idilər. Bu da ancaq irfan dəryasından nəsib almağa bağlı bir keyfiyyətdir.

Hekayədə təmsilən **“Xəlifə qapısı”** kimi təsvir edilən məkan, **“Dərgahi-ilahi”**dir.

Mömin olan kimsə nə qədər elm, irfan, mal-mülk və ibadət sahibi olur-olsun, bu məziyyət və imkanlarına güvənib aldanmamalıdır. Bu dəyərlərin hamısını Rəbbinin lütfü bilib, şəxsi əməllərinin də Dəclə qarşısında bir kuzə su olduğunu unutmamalıdır.

Çöl bədəvisinin çöldə min bir əzabla yığıb xəlifəyə təqdim etdiyi bir kuzə su onun aləmində həyat iksiri idi. Halbuki Dəclənin içinə tökülüncə qeyb olub getdi.

İnsan oğlunun bəşəri imkanlarla həqiqətinə çatmağa çalışdığı, ilahi tənzim və sənətdən ala biləcəyi, onun əsil həqiqəti qarşısında Dəclə çayının bir damlası belə deyildir. Hekayədə keçən su kuzəsi bizim nöqtə böyüklüyündəki elmimizdir. Ancaq biz Allahın sonsuz Dəcləsindən xəbərsiz olduğumuz üçün öz bildiklə-

rimizin çox geniş və həcmli olduğunu zənn edirik. Qarışqanın öz kiçicik yuvasını, balığın akvariumunu böyük bir kainat zənn etməsi kimi insanın qəflətə dalaraq öz cılızlığını görməməsi, nəhəng bir aynanın yalanlarına aldanaraq misal verdiyimiz qarışqa və balığın halına düşməsi necə də böyük bir aldanışdır.

Ancaq **"varlıq kuzəsini"** daşa vura bilən Haqq aşiqləri, kuzəni qırmaqla onu daha sağlam və daha mükəmməl hala gətirər və kölgə olan varlıqlarının əsarətindən qurtularlar.



Çünki varlıq küpü qırılınca içindəki su süzülür, şəffaflaşır, saflaşır və ruha büllur olur. Yəni bu qırılmadan bənzərsiz hallar meydana gələr.

Allah Rəsulu (s.ə.s) elmin fəlakət və səlamət mərhələlərini belə ifadə edir:

"Elm üç qarışdır. Birinci qarışa yetişən (əldə etdiyi azacıq məlumatı özünə aid edərək) qürürlanıb kibirlənər. İkinci qarışa yetişən (ilahi qüdrət və səltənət qarşısında) heyrətə düşər. Üçüncü qarışa yetişən də (Haqqın nəhayətsiz elmini görərək o sonsuz elm içərisində özünün heç bir şey) bilmədiyini idrak edər."

İnsan oğlunun istinad etmək istədiyi əməllərinə əhəmiyyət izafə etməsi, Dəclənin yanında bir kuzə su deyildirmi?

Qara buludların günəş işığına mane olması kimi, Allah qorusun qəlbin şeytana taxt olması halında Rəhmanın hidayəti oraya nə qədər nüfuz edə bilər? İnsan Dəclədən xəbərsiz olduğu üçün bir kuzə suyu ümman zənn edər və zənnində boğulub məhv olar.

Dünya sərmayəsini axirət sərmayəsinə dəyişə bilməsək, dünyadakı cəhdlər şeytanlara nəsib olar. Nəticə xüsran və acı aldanış olar.. İsraf çılğınlığı və mərhəmət yoxsulluğu dünyada baş bəlası, axirətə əzab sərmayəsidir. Keçmiş günlərimizin *"dəftəri"* qapanmışdır. Bunlarda dəyişiklik etmək imkansızdır. Gələcək günlərimiz isə məchuldan başqa bir şey deyildir. An bu andır! Bu anımızın könül və alın tərlərini həyat tarlamıza sağlam toxumlarla əksək, inşallah, axirətimizin daşqaşla bəzənmiş sarayları olar. Sədi Şirazi bu qənaətdədir ki: *"Ərzin səthi-Rəbbin ümumi süfrəsidir."*

İnsan, bütün əsmayi-ilahiyyənin kamil təcəllisi olduğu üçün böyük bir aləmin kiçik bir modelidir. Onun torpaqdan olan görüntüsü varlığının zahiridir; fani üzüdür. Həqiqi varlığı isə əsrar , nur və ilahi həqiqətin gizli bir xəzinəsidir. İnsanın mükərrəmlik vəsfi budur! Yaradılış məqsədinə uyğun mərifət dənizindən nəsib ala bilməsi buna bağlıdır.

Bir kəpənəyin yanma bahasına işığa ram olması kimi Həllaci-Mənsur da əsrar dənizinin coşğunluğunda fani varlığını yox etməyə addım atdı. İlahi

təcəllilərlə özünü yaxıb-yandırdı. Ruhu ucalıb feyz ilə dolunca nəfsi zəifləyib bitim nöqtəsinə çatdı. Özü üçün yadlaşdı, ondan qurtulmağa çalışdı. Kəsif təcəllilərə təhəmmül edə bilmədi. Bayılma (səkr) halına sürükləndi:

"- Dostlar, məni öldürün! - dedi. – *Zira mənim əbədi həyatım ölümdədir!"*

Daş-qalaq edilərkən onu incidən yeganə hadisə dostunun ona daş yerinə bir qərənfil atması oldu. Dünyəvi bir təvəccöh və təbəssüm belə ona ağır gəldi.

Bu hal başqa bir ifadə ilə fani varlığın ilahi varlığa ram olaraq qulun ölümsüzlüyə qovuşmasıdır.

Dənizə düşən bir damlanın suda qeyb olması kimi dənizə dalan kimsə də sudan başqa bir şey görməz.

Bu mərtəbəyə qalxanlar hər şeyi, hətta özlərini belə Haqdan ibarət görürlər. Fəqət bu, bir haldır. Bu hal keçincə Haqq yenə Haqqdır, əşya da əşyadır. Hədisi-şərifdə bu halın bir misalı belə verilmişdir:

"Yer üzündə yaşayan bir ölü görmək istəyən Əbubəkrə baxsın!"

Mərhəmət və ədalət sarıdan abidələşən həzrət Ömər (r.a) Şama gedərkən sıra köləsinə gəldiyi üçün dəvəyə onu mindirdi. Özü isə şəhərə piyada addımlayaraq girdi. Xalq, köləni xəlifə zənn etdi.

Həzrət Ömərin vəfatından sonra dostları onu röyada görürlər:

"–Rəbbimiz sənə qarşı necə rəftar etdi?"–deyə ondan soruşurlar.

Həzrət Ömər:

"–Əlhamdulilləh! "Rəhman və Rəhim" olan Rəbbim var"–deyir.

Həzrət Mövlana buyurur:

"Madam ki, fəqir, comərdlik kərəminin aynasıdır, xəbərin olsun ki, aynanın üzərinə hohlamaq zərərlidir."

Yəni fəqiri və qəribi rədd üçün ağızdan çıxacaq hər səs və nəfəs onun qəlbini incidər. Sanki qəlb səthinə hohlanmış ayna kimi buğlanar. Parlaqlıq və dərinliyi zay olar. Comərdliyin kərəmini göstərməz olar. Əməllərimiz, sədəqələrimiz daima gözümüzdə böyüyər. Onlar başımızı qatar və aldadar. Həzz hamballığına sürükləyər. Dəclədən və onun sahibindən xəbərsiz olduğumuz üçün bir kuzə su gözümüzdə bir dərya olar.

Dünyəvi istəklərimiz bitib-tükənmək bilməz. Sahib olduğumuz hər şeyi özümüzün təbii haqqımız zənn edərik. Bizdən bir fədakarlıq istədikdə öz mülkümüzdən istənirmiş kimi hərəkətimiz dəyişər.

Bunun nəticəsində əmanətin və səxavətin kristal, bərraq və zərif aynası ləkələnər. Halbuki Uca Allah:

"Yetimə qəhr etmə, fəqiri rədd etmə" (əd-Duha 9-10) buyurur.

Mövlana (q.s) digər beytində:

"Gözəllər saf və parlaq ayna aradıqları kimi cömərdlik də fəqir və zəif kimsələri istəyər. Gözəllərin üzü aynada gözəl görünür, yaxşılıq (in`am) və ehsanın gözəlliyi də fəqir və möhtaclarla ortaya çıxar"- buyurur.

Gözəllər öz gözəlliklərini seyr etmək

üçün aynanın əsiri olurlar. Hətta arxası kölgəli şüşələrə belə özlərini göstərmək üçün baxaraq keçərlər. Mənəvi və əsil gözəllik olan comərdlik də özünü çarəsizlərin və fəqirlərin könül güzgüsündə seyr edər.

Yenə Mövlana (q.s) buyurur:

"O halda fəqirlər ilahi mərhəmətin və Rəbbani kərəmin aynasıdırlar. Haqq ilə olanlar və Haqda fani olanlar daim comərdlik halındadırlar."

Həzrəti-Cabirdən nəql edilən Təfsiri-Hazində deyilir: "Kiçik bir uşaq Rəsulullahın hüzuruna gəldi. Anasının bir köynək istədiyini ərz etdi. Bu zaman Rəsulullahın əynindəkindən başqa köynəyi yox idi. Uşağa başqa vaxt gəlməsini söylədi. Uşaq getdi. Təkrar gələrək anasının Peyğəmbərin əynindəki köynəyi istədiyini bildirdi. Peyğəmbər Hücreyi-səadətə (mübarək evinə, otağına) girdi, əynindəki köynəyi çıxarıb uşağa uzatdı.

Bu zaman Bilal-Həbəşi azan oxuyurdu. Belə bir vəziyyətdə Peyğəmbər əyninə keçirməyə bir şey tapa bilmədiyindən camaat namazına gedə bilmədi. Əshabdan bəzisi maraq etdi, Hücreyi-səadətə girib onun köynəksiz olduğunu gördülər...

Sərvət bir əmanətdir. Onun səadətinə və ləzzətinə qovuşa bilmək ancaq məhrumların iztirabından duyğulanaraq qəlbimizdən onlara bir şəfqət və mərhəmət pəncərəsi açа bilməklə mümkündür.

Həzrət Mövlana (q.s) buyurur:

Sərvət bir əmanətdir. Onun səadətinə və ləzzətinə qovuşa bilmək ancaq məhrumların iztirabından duyğulanaraq qəlbimizdən onlara bir şəfqət və mərhəmət pəncərəsi açа bilməklə mümkündür.

"Şəfqət və mərhəmətdə Günəş kimi ol!"

"Başqalarının qüsurunu örtməkdə gecə kimi ol!"

"Səxavət və comərdlikdə axar su kimi ol!"

"Hiddət və qəzəbdə ölü kimi ol!"

"Təvazökarlıqda və məhviyyətdə torpaq kimi ol!"

"Ya olduğun kimi görün;
Ya göründüyün kimi ol!"

Unutmamaq lazımdır ki, kim özünü necə göstərirsə göstərsin onun könül kuzəsində nə varsa, çölünə də töküləcək odur. Çünki elə kuzələr vardır ki, sevgi və məhəbbət atəşilə dolu olduğundan bəhs edilərkən, nəticədə qəflət suları axıtmışlar. Yenə neçə abi-həyatdan bəhs edən elə insanlar vardır ki, nə ondan bir udum içmiş nə də içirə bilmişdir. Buna müqabil elə xas qullar da vardır ki, təvazökarlıq içində gizlənib xaricdən boş bir kuzə zənn edilsə də, könüllərindəki bir damlanın içərisində dibsiz və sahilsiz ümman olmuşlar. Allah onları yanıb susamış olan aşiqlərə bir kövsər suyu kimi ikram etmişdir.

Allah təala hamımıza dünyada belə bir kövsər və Məi-Təsnimdən (cənnətdəki Təsnim bulağından) damlalar lütf edərək bizləri ilahi dərgahına qəbul olunan ixlaslı və səmimi könül ərlərindən etsin!

Amin!..

Şefika Kaya MERİÇ



Könüllərin Gülü
HƏZRƏT FATİMƏNİN GÖZ YAŞLARI

Hər yer onunla gül bağçası kimi idi. Güllərin sultanının bağçasında ən seçkin bir gül idi o. Bir daha onun kimi bir gül görmədi bu gülüstan. Bəlkə ondan nümunə götürən güllər oldu. Ondan nümunə götürmək və ona bənzəmək də ayrı bir gül xüsusiyyəti verəcəkdi onun iziylə gedənlərə…

Qız uşaqlarının utanc gətirdiyi, diri-diri basdırıldığı bir bölgədə "içəri girdiyi zaman ayağa qalxılan, əlləri öpüləcək bir qız olmaq, atasının anası olmaq" Peyğəmbərimizin gətirdiyi İslamın qadına verdiyi dəyərdən irəli gəlir hər halda. Oğlan uşaqlarının belə sevilməsi ayıb sayılan bir cəmiyyətdə Rəsulullah Fatimənin əllərindən və üzündən öpərdi. Necə də çox sevirdilər ata-qız bir-birilərini… Fatimədən danışarkən:

"Fatiməni razı salan məni razı salmışdır.

Onu hirsləndirən məni hirsləndirmişdir.

Fatiməni məmnun edən məni məmnun etmişdir.

Fatimə məndən bir parçadır.

Fatiməni incidən məni incitmişdir.

Məni incidənsə Allahı incitmişdir." buyurardu.

Rəsulullah yetim idi, əmisi də vəfat etdi, yoldaşı Xədicə də… Xədicədən bir o qalmışdı can yoldaşı. Ona **"Ummi Əbihə"** deyərdi Peyğəmbərimiz. Yəni **"Atasının Anası"**. **"Atan sənə fəda olsun"** deyərdi. Kiçik Fatimə atasını çox sevir, onu qoruyurdu, bir ana kimi ona şəfqət göstərirdi… O, uşaqlıq illərini İslamın ən zəif, müsəlmanların ən çox əzildiyi bir dövrdə keçirdi.

Bir gün müşriklərdən biri Rəsulullahı küçədə görüb başına zir-zibil və natəmiz şeylər tökdü. Rəsulullah (s.ə.s) heç nə demədi və bu halda evə qayıtdı. Hz. Fatimə (r.a) atasını bu vəziyyətdə görüb tez su gətirdi, yaşlı gözlərlə atasının başını və üzünü yudu. Rəsulullah (s.ə.s) belə buyurdu: **"Qızım, ağlama! Arxayın ol ki, Allah atanı düşmənlərin şərindən qoruyacaq və onlara qalib qılacaqdır."**

Həzrət Fatimə…

Kainatın Fəxri gül idisə, o da gülün incə qönçəsi idi.

Rəsulullah Can idisə, o da Canan idi.

Rəsulullahın dərdinə şərik, ciyərparası. Əsri-Səadətdə Rəsulullahla əlaqəli hansı səhnəyə baxsanız orada mütləq Fatiməni görərsiniz. Peyğəmbərlə bağlı hansı xatirə yad edilsə içində mütləq Hz. Fatimə vardır. Fatiməyə baxsanız onda Hz. Məhəmməd (s.ə.s)-i görərsiniz. Peyğəmbərimizdə isə gözünün ağı-qarası qızı Fatiməni…

Fatimə anamız Rəsulullahın nəslinin davam etdiyi yeganə qızı və sevimli nəvələrinin anasıdır. İki inci: Həsən və Hüseynin anaları. Və Allahın Aslanı Həzrət Əlinin möhtərəm xanımı.

Həzrət Fatimənin həyatı ən az atasının həyatı qədər məşəqqətli idi. Durmadan onun üçün çırpınan və onun yanında bir kölgəyə çevrilən ümid işığı idi.

Hz. Peyğəmbər bir səfərə çıxacağı zaman Hz. Fatiməyə baş çəkər, qayıdanda da birinci onu ziyarət edərdi. Səfərdən döndükdə ailəsinin uşaqları tərəfindən qarşılanan Hz. Peyğəmbər uzaqda qalan uşaqlarını da soruşar, maraqlanardı. Məsələn: Hz. Ruqiyyə əri Hz. Osman ilə Həbəşistana hicrət etmişdi. Bir ara onlardan xəbər ala bilmədilər. O zaman Hz. Peyğəmbər çıxaraq o tərəflərdən gələnlərdən onları xəbər alardı.

Kədərli anlardan biri də ölüm anında yaşanır. O zamanlarda da Peyğəmbər uşaqlarının yanında olardı. Hz. Ruqiyyə ödlüyü zaman Hz. Peyğəmbər qəbrin yanında oturmuşdu. Hz. Fatimə də yanındaydı, ağlayırdı. Hz. Peyğəmbərsə əlindəki dəsmalla Fatimənin göz yaşlarını silirdi. Başqa bir ölüm hadissində də Hz. Peyğəmbər can verən kiçik bir qızını bağrına basmış, uşaq öldükdə isə ağlamışdı.

Hz. Ümmü Gülsüm dəfn edildiyi zamansa torpaq ataraq boşluqların doldurulmasını əmr edir və belə buyururdu: "Bunun heç bir faydası yoxdur, amma geridə qalanların könlünü xoş edər!" Hz. Peyğəmbərin uşaqlarına olan başqa bir qayğısı da onları müxtəlif vəziyyətlərdə qorumaq şəklində olmuşdur. Məsələn: qızlarını evləndirərkən həm yoldaş seçimində, həm mehirin müəyyənləşməsində və gözəl toy məclisi qurma xüsusunda, həm də günülü evliliyə razı olmamaqla bir ata kimi uşaqlarını qorumuşdur.

Həzrət Fatimə ilə Rəsulullahın arasındakı məhəbbət tərifəsığmaz xarakter daşıyırdı. O, gül balasını həyatın hər anında təqib etmiş, onun gəncliyində də, evliliyində də ən gözəl olana layiq olduğunu düşünmüşdü. Peyğəmbər Hz. Fatiməni ayrı-ayrı istəyən Hz. Əbu Bəkr və Hz. Ömərə kiçik olduğunu söyləyərək mübət cavab verməmiş, Hz. Əli ilə evləndirdikdə də mehirin müəyyənləşməsindəyaxından iştirak etmişdir. İzdivacdan əvvəl də Hz. Fatiməyə: "Fatimə! Vallahi səni onların ən alimi, ən ağırbaşlısı və ağıllısı, ən əvvəl müsəlman olanı ilə evləndirdim!"

O, yaşı az olduğu üçün və xüsusilə anası Hz. Xədicə (r.a)-nın vəfatından sonra atasının yanından heç ayrılmadı. Bəzən atasının əlindən tutub Məkkə küçələrini dolaşdı. Bəzən də atasını təqib etdi. Müşriklərin işgəncələrinə məruz qalan atasına yardım etməyə çalışdı.

Bir gün atasıyla Kəbəyə getmişdilər. Qü-

Rəsulullahın dərdinə şərik, ciyərparası. Əsri-Səadətdə Rəsulullahla əlaqəli hansı səhnəyə baxsanız orada mütləq Fatiməni görərsiniz. Peyğəmbərlə bağlı hansı xatirə yad edilsə içində mütləq Hz. Fatimə vardır.

reyş müşrikləri onları görüb bir yerə yığışdılar və pıçıldaşaraq danışmağa başladılar. Atası Kəbənin yanında namaza durdu. Səcdəyə getdikdə Uqbə bin Əbi Muayt adlı ağzın müşrik bir dəvə içalatı gətirərək atasının belinə qoydu. Sonra da müşriklər gülməyə və Rəsulullaha lağ etməyə başladılar. Buna çox qəzəblənən kiçik Fatimə göz yaşları içində atasının belindən o ağırlığı qaldırıb patlarını təmizlədi. Fəxri-Kainat (s.ə.s) başını səcdədən qaldırdı və əllərini açaraq o ağzınlar üçün "Allahım, bu azğınları Sənə həvalə edirəm! Qüreyşi Sənə həvalə edirəm!" –buyurdu.

Abdullah bin Məsud (r.a) Kəbə haramında Rəsulullah (s.ə.s)-ə bu şəkildə əziyyət edənlərin sonunun çox acı olduğunu belə rəvayət edir: "Allaha and olsun ki, o ağzın müşrikləri Bədirdə gördüm. Hamısını öldürdülər. Bəzilərini sürüyərək Bədir quyusuna atdılar."

Həzrət Fatimə Məkkədə atasının yanından ayrılmadığı üçün bu kimiəza və cəfaları çox gördü. Yenə bir gün Kəbəyə getmişdilər. Müşriklər atasını mühasirəyəalaraq "Filan, filan sözü deyən sən deyilsənmi?" –deyərək həqarət etdilər. Hətta ağzın bir müşrik Rəsulullahın yaxasından tutub silkələdi. Kiçik Fatimə çox qorxdu və titrəyərək yerə yıxıldı. Rəsulullahsa heç bir təlaşa gərək duymadan haqq olaraq söylədiyi sözləri təkrar edərək: **"Bəli, bunları söyləyən mənəm"** buyurdu. Bu əsnada Hz. Əbu Bəkr (r.a) özünü yetirdi və: **"Rəbbim Allahdır dediyi üçün bir adamı öldürəcəksinizmi?"** –deyərək müdaxilə etdi və ağzın müşrikləri oradan uzaqlaşdırdı.

Bir gün Hz. Fatimə müşriklərin Məscidi-Həramda oturub atasını öldürmək üçün planlar qurduğunu gördü və yaşlı gözlərlə evə gedib onların aldığı qərarı Rəsulullaha xəbər verdi. O, ümmətin anasıydı, imamların anasıydı. O, Kövsərdi. O, Rəsulullaha və onun gətirdiyi risalətə inanmayanlara, "əbtər" – soysuz deyən zehniyyətə verilmiş ilahi bir cavabdı.

O, Allahın lütfü idi. Allah-Təalanın bu vədi Hz. Fatimənin dünyaya gəlməsi ilə gerçəkləşdi, dünyanın üfüqləri onun nuruyla aydınlandı və Allah-Təala qadının nə qədər uca bir məqama yüksələ biləcəyini göstərmiş oldu bütün aləmə. Peyğəmbərinin təmiz soyunun Hz. Fatimə ilə davam etməsini istəmişdi.

Çox sevdiyi atasının bu dünyadan ayrılma vaxtı gəldikdə, onun baş ucunda olduğu halda Rəsulullah Hz. Fatimənin qulağına nə isə deyir. Bu zaman ağlamağa başlayan Fatimə Rəsulullahın yenidən qulağına nə isə düməsi ilə ağlamağı kəsər və gülümsəyər. Daha sonra hadisənin səbəbini danışan Fatimə Hz. Peyğəmbərin yaxalandığı xəstəlikdən xilas olmayaraq vəfat edəcəyini söylədiyini və özünü saxlaya bilməyərək ağladığını, ancaq bu zaman da əhli-beytindən özünə qovuşacaq ilk adamın fatimə olduğunu müjdələdikdə gülümsədiyini deyir.

Ömür boyu Həzrət peyğəmbərin yaşadığı bütün iztirablara şahid olmaq, onu bir övlad şəfqətindən çox bir ana sevgisi ilə qorumaq, arxa olmaq… Onun dünyadan köç edişinə dözməyib arxasınca tələsərək rəfiqi-əlaya yüksəlmək… Məhz budur Həzrət Fatimənin bir ömür axar göz yaşlarının ona lütf etdikləri. Onun gözlərindən axan yaşlarda çox sevdiyi atasına olan düşkünlüyü, sevgisi, məhəbbəti vardı.

Son söz: Hz. Fatimənin göz yaşları vardı, bizim nəyimiz var Rəsulullaha təqdim edəcəyimiz?

Sevinc VƏKİLOVA

RAMAZAN BAYRAMI VƏ QƏDR GECƏSİ

Ramazan ayı mübarək üç ayların üçüncüsü, ay təqviminə görə də doqquzuncu ayın adıdır. Ramazan ayının dinimizdə böyük bir əhəmiyyəti və digər aylar arasında xüsusi bir yeri vardır. Çünki müqəddəs kitabımız Qurani-Kərim məhz bu ayda nazil olmağa başlamışdır. Quranda min aydan daha xeyirli olduğu bildirilən **"Qədr gecəsi"** yenə bu ay içində qeyd olunur. Ayrıca İslamın təməl ibadətlərindən olan oruc da bu ayda tutulur. Bu səbəblə Ramazan ayı Müsəlmanlar üçün ən müqəddəs aydır və ona **"On bir ayın sultanı"** deyilmişdir.

Həqiqətən Ramazan ayının həyatımızda ayrı bir təsiri vardır. Bu ayın yaxınlaşması ilə birlikdə hazırlıqlara başlanılır. Evlərimizdə ümumi təmizlik edilir.

Ramazanda oruc açma vaxtının ayrı bir sevinci vardır. Bütün ailə üzvləri birlikdə süfrəyə oturar, oruc açma vaxtının gəlməsini gözləyirlər. Azan səsinin eşidilməsiylə birlikdə oruclar dua ilə açılar. Ramazan ayı, həqiqətən, bir ibadət ayı olaraq yaşanır. Ramazan ayı namaz və orucun yanında eyni zamanda bir köməkləşmə ayıdır. Bu ayda yoxsullar, imkansızlar daha çox xatırlanır. Adət-ənənəyə görə yaxınlar, qonşular və yoxsullar iftara çağırılır. Maddi vəziyyəti yaxşı olmayanlar üçün iftar süfrələri təşkil edilir.

Ramazan Quran ayıdır. Ramazan ayını qiymətli edən səbəblərdən biri müqəddəs kitabımız olan Quranın bu ayda endirilmiş olmasıdır. Uca Allah Quranda: **"Ramazan ayı insanları qurtuluş yoluna aparan, doğrunu səhvdən ayıran Quranın nazil olduğu aydır". (əl-Bəqərə, 185)** buyurmuşdur.

Quran Allah tərəfindən insanlara öyüd vermək və yol göstərmək üçün göndərilmişdir. Quran oxumaq da bir ibadətdir. Peyğəmbərimiz (s.ə.s.) Allahın bildirdiyi vəzifə və məsuliyyətlərimizi tez-tez xatırlamamız üçün Quranı çox oxumağı təşviq etmişdir. Qurani-Kərim Ramazan ayının Qədr Gecəsində endirilməyə başlanmışdır.

Allah Təala Qurani-Kərimdə Qədr Gecəsinin **"Min aydan daha xeyirli"** olduğunu xəbər vermişdir. Bu əvəz olunmaz gecənin hansı gecə olduğu haqda fərqli fikirlər vardır. Mübarək Ramazani-Şərifin bütün gecələri qiymətli bilinib qullar tərəfindən canlandırılsın deyə Allah Təala o gecəni gizli tutmuşdur. Peyğəmbərimiz (s.ə.s.) bir hədisində: "*Kim Qədr gecəsini Allaha iman etmiş olaraq və ondan razı olmasını istəyərək ibadətlə keçirsə, bütün keçmiş günahları bağışlanar*" - buyuraraq, bu gecənin əhəmiyyətini ifadə etmişdir. Hz. Aişə anamız: *"Ramazanın son on günü girdiyində Allahın Rəsulunun ibadət həyatında bir fərqlilik gözə dəyərdi"*- demişdir. Üləmanın böyük əksəriyyəti Übey b. Kabdan rəvayət edilən bir hədisə əsasən Qədr gecəsi 27-ci gecədir demişlər. Və bu gecə müsəlmanlar tərəfindən Qədr gecəsi olaraq böyük etibarla qəbul olunmuşdur.

"Ramazan ayı insanları qurtuluş yoluna aparan, doğrunu səhvdən ayıran Quranın nazil olduğu aydır". (əl-Bəqərə, 185)

Bu halda bizlər Ramazani-şərif gecələrini, son on gün içindəki tək gecələri, xüsusilə, 27-ci gecəni bütün ixlas və səyimizlə, ixlasla dua və ibadət etməliyik.

RAMAZAN

Gülçöhrə NİKBİN

Nəfisləri təmizləyər Ramazan,
İnsanların könlü-gözü tox olar.
İftar üçün asılar hər cür qazan.
Bu bir ayda şeytan, iblis yox olar.

Oruc tutar varlı, kasıb insanlar,
Bu cür olar "toxun acdan xəbəri".
Şükürlər ki, orucluq, Ramazan var-
Unudursan cəhaləti, kədəri.

Oruc tutub, namaz qılan mömünlər
Uca Tanrı özü sizə yar olsun.
Müsəlmanlar daim olsun bərabər,
İslam dini-barış dini var olsun.

Səlimə ƏHMƏDOVA

ƏHSƏNÜL-TƏQVİM

Zikr halında fırlanan fani dediyimiz dünyanın içində Allah (c.c.)dən qafil yaşamaq zalımlıqdır. Ağuşuna alıb bizi də fərqində olmadan fırladır dünya. Amma özündən çölə atmır. İnsan isə həmişə nadancasına çölə can atır, içinə dönmür, ürəyini dindirmir, özünə qayıtmır nədənsə?

İnsanoğlu diqqətlə ətrafına baxsa, görməsi lazım olan hər şeyi Allahın izniylə görər. İbrahim (ə.s.)in təvvəkkül qapısı, İsmail (ə.s.)in təslimiyyət sancağı bu dünya üstündədir. Adəm (ə.s.)in tövbəsinin qəbul olduğu Arafat da dünya üstündədir. Məhəmməd (s.ə.s.)in Miraca çıxdığı – ayağını basdığı torpaq da bu dünyanın torpağıdır. Bütün zənginlik və səltənəti geridə qoyan bir zənginliyə sahib Süleyman (ə.s.)in zənginliyi də bu dünyada qalmışdır. İsa (ə.s.) bu dünyada gözlərini açdı və o böyük günün xəbərçisidir.

Ey xəbərsiz qalanlar! İçində fırlandığımız bütün nemətlərini ayaqlarımızın altına sərən bu dünya nə qədər ki, bizi özündən silkinib atmadıqca, bu ibrətli həyatları oxuyub, öyrənib, dərs almaq da bizə düşər. Bir gün toyda, bir gün yasda, bir gün ziyafət, bir gün səyahət, bir gün şadsan, bir gün qəmgin bitər bu dünya həyatı, nəhayət.

Dara düşəndə, çarəsiz qalanda açılmayan əllərinizi açırsınız, atan-anan, övladın əzizlərin xəstələnəndə **"Ey Rəbbim"** deyənlər! Axı, Allah Təala bolluqda da, darlıqda da məni anın deyir. Heç unutma! Allah Təala səni Əhsənül-Təqvim yaratdı. Sənə üz tuturam, ey ümmətinəm deyən, özünü Həzrət Məhəmməd (s.ə.s.)ə ümmət bilən, gözəl biçimdə xəlq olunan insan övladı.

Ey əhsənül-təqvim! Zənginəm deyirsən. Namazınla, orucunla, həccinləmi zənginsən? Verdim deyib hər yerdə öymə özünü, bir ovuc torpaq örtəcək gözünü. Zənginəm, fərqliyəm, yerim başdır. Qapılma başolma sevdasına, sonra ayaqda belə yer tapa bilməzsən o böyük gün. Bir şeyi unutma Allah (c.c.) qatında şükür edən zənginlərlə, səbr edən yoxsullar dəyər qazanır. Dəyərini zamanında itirmə.

Ey əhsənül-təqvim! Sən bir həkimsən, bir adın da təbib. Unutma! Dərdi də, dərmanı da verən Allahdır. Dərmansız sənin quru adın var. Dərman tapanda özünü təbib bil, dərdə dəva verəni unutma, acı dərmana satma. Allah Təalanın verdiyi şirin canın o Böyük Gün sənə acı verməsin, vicdanını qoy gözlərinin önünə, pulu-pa-

ranı yox. O gün tərəzilər pulu çəkməyəcək.

Ey əhsənül-təqvim! Sən bir əsgərsən. Sərhəddə duran əsgər qardaşım. Əgər haqqını versən, vətən sevgisi imandandır! Bayrağını daim başında gəzdirsən, cəhənnəm səni yaxmaz, biləsən! Silaha möhkəm sarıl, gözün yuxu tutmasın. Alnın ağ, sinən açıq olsun! Düşmən kürəyini deyil, mərd ürəyini görsün! Gördüyü gözü kor olsun!

Ey əhsənül-təqvim! Sən bir müəllimsən! Müəllim olub zülm eyləmə. Müəllim ol, alim ol, elminlə işıq saç, sevgini elmin kimi, elmini sevgin kimi tələbələrinə payla!

Musab bin Ümeyr kimi müəllim ol! Varlığı yoxluğa, yəni zənginliyini imanlı yoxsulluğa, mənəvi zənginliyə dəyişən qızıl ürəklərin tacir müəllimi ol. Fədakar ol!

Ey əhsənül-təqvim! Sən bir anasan! Cizgi filmlərinin qəhrəmanlarına bənzəmək istəyən övladlar yetişdirməkdən çəkin. Yetim Məhəmmədi (s.ə.s.), Balaca İsmayılı (ə.s.), Ağıllı İbrahimi (ə.s.), Sevgili Yusifi (ə.s.) Mələklərin yardımıyla böyüyən Musanı (ə.s.) beşikdə dil açan İsanın (ə.s.) nağıllarıyla böyüt övladlarını.

Ey Cənabı Haqqın mərhəmət payından hamıdan çox nəsiblənən ana, unutma! Ana məktəbini əla oxumayan uşaqlar həyat məktəbində müvəffəqiyyət qazana bilməz, qənaətimizcə. O məktəb də sənin əlindədir. Qələmi möhkəm tut!

Ey əhsənül-təqvim! Sən bir atasan! O könüllər sultanı kimi ata olmaq istəməzsənmi? Fatimə (r.a.) anamız gələndə ayağa qalxar alnından öpərdi. Bir baxışıyla anlaşan ata-övlad kimi. Məhəbbətin sonsuz gücündəndir ki, hz. Fatimə (r.a.) onu sözsüz anlayardı. Bu körpünü qurmağı sən də bacarmalısan. Övladlarını maddi yöndən artıqlamasıyla ehtiyaclarını ödədiyin kimi, mənəvi yöndən də ruhlarının qidalanması üçün şərait yarat. Bu, sənin üzərinə düşən borcundur. Yoxsa cəhənnəmdə yanması üçün övlad dediyin əzizlərini odun kimi yanmasının tədarükçüsü olarsan. Unutma! Bu da sənin əlindədir!

Ey əhsənül təqvim! Sən bir övladsan! Bir gün sən də ata, ya da ana olacaqsan. Sənin də övladların olacaq. Həyatı yaşayım deyib gəldiyin yeri unutma. Həyat cibin doluluğu, bahalı avtomobillər, telefonlar, imarətlərdən ibarət deyil. Heç arxa bağçaya keçdinmi? Hər zaman içində gül olma eşqi olsun! Yandıra-yandıra nəfsinin oyunlarına özünü kül eyləmə! Anan səni min bir əziyyətlə doqquz ay bətnində, sonra qucağında, daha sonra titrək ürəyində ürəyi kimi gəzdirir və sevir, qarşılıq gözləmədən, fədakarcasına. Sən də bax bu mənzərəyə bir anlıq. Nə keçər ürəyindən, bunlar keçməzmi, bir cümlə: *"Onlara "of" belə demə!"*- deyə.

Ey əhsənül-təqvim! Sən bir gəncsən! Güclüsən, qüvvətlisən, elmlisən. Daha da faydalısan. Qurani-Kərim işığıyla aydınlat qəlbini. Allah Təalanın zikriylə parlat qəlbini. Necə ki, sular daşları parlatdığı kimi, sən də qəlbini cilala və parlat. Yaşa və yaşadanı unutma! Vaxtını və zamanını dəyərləndir. Bol-bol bu fürsətdən istifadə et. Bir qızın və ya oğlanın sevgisi səni uzaqlaşdırmasın sevgini sənə bəxş edəndən. Sev! Sevdiyin zaman da sevgini sənə lütf edən üçün sev! O zaman dəyər qazanarsan.

Rəbbim cümlə müsəlmanlardan sevgisini, məhəbbətini əskik etməsin. O əhsənül-təqvim adını daşımağı hər birimizə ehsan eyləsin. Amin!

Ceyhunə QASIMOVA

RAMAZANİ-ŞƏRİF MƏNƏVİ YÜKSƏLİŞ MƏQAMIDIR

Heç sönməyən bir nəşə, heç bitməyən bir zövq, heç əksilməyən eşq ilə sürən bir aydır Ramazan. Bir il içərisində keçən bütün nazlı mövsümlərin, ayların özünü, ruhunu, həqiqi mənasını ifadə edən Ramazan günləri, Ramazan gecələri hər an könülləri ayrı bir həzz və ayrı bir şirinliklə bürüyər, şəfqətlə onları qucaqlayar, məhəbbətlə oxşayar və yaşamaq eşqi ilə coşdurar.

Ramazan ayına qədər ruhun sonsuzluq arzusu ilə insan arasındakı sanki bir pərdə var olur və bu pərdə yalnız orucla aralanır. Ona qədər qəlbin bir guşəsində səssiz-səmirsiz yatan eşqi-şövq birdən-birə canlanar və coşaraq bütün insan mənliyini bürüyər və qarşısı alınmaz bir vüslat arzusuna çevrilər.

Bu müqəddəs arzunun həyata keçirilməsi yolunda ilahi mehlərin əsdiyi səhərlər bir fürsət kimi dəyərləndirilir, insanlar üçün hər zaman axirətə açıq bir yol kimi müşahidəçini gözləyən namaz vaxtları lazımi qədər qiymətləndirilir. Ruhlara ayrı bir həzz verən təravih namazları ilə könüllər coşdurulur. Hər kəs dərəcəsinə görə axirətə məxsus libasını geyinər, sirrə qədəm basar və bir mələk halını alır.

Ramazan orucunun Allah dərga-

Ramazan orucu gözəllik və xeyir-bərəkət ümmanıdır. Ay boyunca hər gün bu ümmana dalan ruh tərtəmiz olur, şəffaf olur, hər cür çirkinliklərdən, kirdən, dünya pasından yuyunub təmizlənir, dupduru olur. Təmizləndikcə, durulduqca ruh daha da yüksəklərə can atır.

hındakı dəyəri bir müqəddəs hədisdə belə bəyan edilir: *"Hər yaxşılığın on mislindən yeddi yüz mislinədək mükafatı var. Ancaq oruc tutanın mükafatı bu ölçünün xaricindədir. Çünki o, mənə məxsusdur. Onun mükafatını da ancaq Mən verərəm"*. Allah-Təala onu da buyurur ki, haram işlərdən çəkinməyən, fitnə-fəsaddan, pis işlərdən uzaqlaşmayan kəsin səhərdən axşama qədər ac-susuz qalmasına ehtiyacı yoxdur. Demək ki, orucu biz bütün əzalarımızla, ruhumuzla tutmuş oluruq.

Oruc nəfsin tərbiyyəsidir. Nəfs də elə bizim özümüz deməkdir, daha doğrusu bizim haləti-ruhiyyəmizdir. Nəfsin ən pis, ən aşağı məqamı nəfsi-əmmarədir. Yəni haram şeylərə meyl etmək, heyvandan da pis günə qalmaq. İbadətlərin mərkəzində duran başlıca məqsəd insanın nəfsini bu haldan qurtarmaq və kamilliyə doğru inkişaf etdirməkdir. Nəfsin ən yüksək məqamı da mükəmməl nəfsdir. Bəzi alimlər ən aşağı mərtəbəsindən ən yuxarı mərtəbəsinədək yeddi mərhələ sayırlar. Biz də oruc kimi ibadətlər sayəsində nəfsimizi tərbiyə edib, onu iradəmizin ixtiyarına verib və bu mərhələləri pillə-pillə yüksəlirik.

Oruc tutmaq insana ac qalmağı öyrətməklə yanaşı, nəfsi təkəbbürdən, hər cür xudbinlikdən uzaqlaşdırmaq üçün ən gözəl vasitədir. Ay boyunca inanaraq və savabını Allahdan diləyərək oruc tutan insan, əlbəttə ki, mənən yüksələcəkdir. Allah Təala belə buyurmaqdadır: ***"Allah qorxusu ilə insanlar arasında təvazökar dolaşanların Mən məqamını yüksəldərəm"***. Həqiqətən də, düşündürücü bir ismarıcdır. Təkəbbür çox bəlaların, çox problemlərin anasıdır. Bunun üçün də oruc ibadəti insanda bəsirət gözünü açır və çox mətləbi ona göstərir.

Ramazan orucu gözəllik və xeyir-bərəkət ümmanıdır. Ay boyunca hər gün bu ümmana dalan ruh tərtəmiz olur, şəffaf olur, hər cür çirkinliklərdən, kirdən, dünya pasından yuyunub təmizlənir, dupduru olur. Təmizləndikcə, durulduqca ruh daha da yüksəklərə can atır. Beləcə Rəbbin vəd etdiyi mükafata nail olur.

Ramazan mənəvi yüksəliş məqamı, xeyirlərlə dolu bir aydır. İnşallah, bu oruc ayının xeyri-bərəkəti sonrakı aylarda da bizi tərk etməyəcəkdir.

Allah Təala bizləri bir-birindən xeyirli Ramazanlara qovuşdursun! Amin!

BADIMCAN SALATI

Ərzaqlar:
4 ədəd badımcan
2 ədəd orta boy soğan
2 ədəd yaşıl bibər
1 ədəd xiyar
1 ədəd limon suyu
1 fincan zeytun yağı
1 çay qaşığı duz
Hazırlanması:

Badımcanlar sobada yumşalana qədər bişirilir. İsti-isti qabıqları soyulur, incə-incə doğranır və boşqaba qoyulur. Üzərinə limon suyu sıxılır. Xiyar, bibər və soğan xırda-xırda doğranaraq badımcanın üzərinə əlavə olunur, qarışdırılır. Üzərinə zeytun yağı əlavə olunur. Nuş olsun!

YARMA PLOVU (BULQUR)

Ərzaqlar:
1 stəkan yarma (plovluq)
1 baş soğan
1 böyük pomidor
2 sivri bibər
Duz
2 stəkan su, ya da ət bulyonu
Hazırlanması:

Soğan incə doğranılır və yağda qovrulur. Xırda doğranmış bibər əlavə olunur və qovrulur. Sonra isə rəndələnmiş pomidor və duz əlavə olunur. Vam odda 5 dəqiqəyə qədər bişirilir. 2 stəkan su əlavə olunur, əvvəl yüksək atəşdə, qaynamağa başladıqda isə vam atəşdə 20 dəqiqə bişirilir. Ocaqdan götürdükdə üzərinə təmiz bir kağız örtərək dəmləndirilir.

Qeyd: Pomidor əvəzinə bir çay qaşığı tomat da əlavə edə bilərsiniz.

RAMAZAN ŞİRNİYYATI

Ərzaqlar:
1 stəkan qaynadılmış düyü
1 stəkan şəkər tozu
4 stəkan süd
1 yemək qaşığı un
1 yemək qaşığı buğda nişastası
2 yumurta
Yarım çay qaşığı duz
1 yemək qaşığı marqarin

Şərbətin hazırlanması üçün istifadə olunan ərzaqlar:
1 stəkan şəkər tozu
1 stəkan su
1 çay qaşığı limon suyu
1 çay qaşığı vanil

Əvvəlcə şərbətimizi hazırlayırıq, buna görədə şəkər tozunu su ilə qaynadırıq. Ocaqdan götürdükdə limon suyunu əlavə edirik və iki dəqiqə qaynadırıq. Götürdükdən sonra vanili əlavə edirik.

Hazırlanması:

Düyünü qaynadırıq və mikserlə qarışdırırıq. Bir qazanda südü qaynadırıq. 1 stəkan şəkər tozunu, duzu, çəkilmiş düyünü, unu və nişastanı əlavə edirik. Listimizi yağlayırıq. Sonra iki barmaq qalınlığında hazırladığımız məmulatı listə tökürük. 180 dərəcə əvəllcədən isidilmiş sobada qızılı rəng alanadək bişiririk. Soyuduqdan sonra kub şəklində kəsirik və şərbətimizi tökürük. Şərbətimizin soyuq olmasına diqqət edin.

Nuş olsun!

ŞAK-ŞUKA

Ərzaqlar:
2 ədəd böyük badımcan
300 qr dolmalıq bibər
100 qr acı bibər
1 yumurta
1/2 kq pomidor
1 stəkan zeytun yağı

Hazırlanması:

Bibərlərin hamısını xırda-xırda doğrayıb zeytun yağında qovurun. Badımcanı kub şəklində doğrayıb bibərlərin içinə atıb qovurun. Pomidoru rəndələyin onların üzərinə əlavə edin. 10 dəqiqə bişirin. Hazır olana yaxın yumurtanı əlavə edib davamlı qarışdırın. İki dəqiqədən sonra ocaqdan götürün. Soyuqda, istidə yemək olar.

Nuş olsun!

Məryəm XƏLİLOVA

FAYDALI MƏSLƏHƏTLƏR

• Sarımsağı doğradıqda bıçağa yapışmaması üçün taxtaya duz səpin. Sarımsağı asan soymaq üçün əvvəl 1-2 dəqiqə isti suya salın. Yaxud da bir bıçağın ucu ilə sarımsağı əzin.

• Pambıq və yun qiyafətlərinizə tökülən çay ləkəsini çıxartmaq üçün çay yeni tökülmüşsə ilıq suya batırılmış bir bezlə silin. Köhnə isə içinə limon suyu qatılmış ilıq suya salınmış pambıq parça ilə silin.

• Taxta mebellərinizin parıldaması üçün köhnə yun parçanın üzərinə bir az bitki yağı töküb, silin və təmiz toz parçasıyla parıldadın. Mebelinizin parlaqlığını görəcəksiniz.

•Qızılı təmizləmək üçün bir litr suya 15 qr rəndələnmiş sabun və 100 qr ammonyak əlavə edin. Təmizləmək istədiyiniz qızıllarınızı hazırladığınız məhlulun içərisində 1-2 saat saxlayın. Sonra soyuq su ilə çalxalayın və bir dəri parçası ilə təmizləyin.

• Şüşələrinizi sildikdə suyun içərisinə duz əlavə etsəniz çox asan təmizlənər və təmiz olar.

•Kompyuteri təmizləmək üçün ilk əvvəl tokdan çıxarılmalı. Sonra kompyuter üçün təmizləmə köpüyü və yaxud təmizləmə yuyucusu ilə silinməlidir. Kompyuterin içinə su axmamasına diqqət olunmalıdır. Kompyuter təmizlik bitdikdən yarım saat sonra istifadə olunmalıdır.

• Xalçanıza saqqız yapışarsa üzərində buz torbası gəzdirin. Köynəyinizə saqqız yapışdısa neylon torbanın içində soyuducunun buzluğuna qoyun. Bir saat saxladıqdan sonra çıxardın. Asan təmizlənəcəkdir.

• Ağ rəngli taxta qapı və pəncərələrinizi təmizləmək üçün bir neçə soğanı yumşalanadək qaynadın. Bir az soyuduqdan sonra təmizlənəcək yerlərə sürtün.

XÜSUSİ GÖRÜŞ VƏ MƏCLİSLƏRDƏ NƏLƏRƏ DİQQƏT ETMƏLİYİK

Ziyarət saatını düzgün seçməliyik. Yemək, yuxu və dincəlmə saatında ziyarətə getmək olmaz. Ziyarət saatını mütləq xəbər verməliyik. Xəbərsiz getsək ev sahibini pis vəziyyətdə qoyarıq.

Qonaq olduğumuz evdə qaçmaq, tullanmaq və top oynamaq həm qonşuları, həm valideynlərimizi, həm də ev sahiblərini narahat edər. Ona görə uşaqları bu cür davranışlardan çəkindirməliyik. Qonaq olduğumuz evdə başqalarına aid əşyalara əl vurmamalıyıq.

Qapı zənginə basdıqdan sonra bir neçə dəqiqə gözləməli, bu hərəkəti tez-tez təkrarlamamalıyıq. Zəngi dayanmadan vurmaq yalnış bir davranışdır.

Ev sahibinin göstərdiyi otağa buyurmalıyıq. Ev sahibi uşaqlar və böyüklər üçün ayrı-ayrı otaqlar ayırmışsa buna razılaşmalıyıq.

Ziyarət yerinə vaxtında getməliyik. Tez, ya da gec getmək ev sahibini çətin vəziyyətə sala bilər. Onun üçün qərarlaşdırdığımız saata uyğun hərəkət etməliyik. Ziyarətə gedərkən gözəl, təmiz, rahat və göstərişsiz geyimlər geyinməliyik.

Qonaq olduğumuz evdə bizə verilən təamlardan soruşulmadıqca təkrar istəməməliyik. Əgər istədiyimiz şeydən evdə yoxdursa ev sahibi çıxılmaz vəziyyətə düşər.

Hicran NOVRUZOVA

Baqqal Və Tutuquşu

Bir baqqalın rəngli, gözəl səsli və çox yaxşı danışan bir tutuquşusu var idi. Bu tutuquşu dükanın sanki gözətçiliyini boynuna götürmüşdü; gələnlərə gözəl sözlər söyləyib, zarafatlar edərdi. Eynilə bir insan kimi danışması ilə bərabər, həm də çox gözəl cəh-cəh vurardı.

Baqqal bir gün evinə getmişdi. Tutuquşu da həmişə olduğu kimi dükanı gözətləyirdi. O sırada siçanı qovan pişik dükandan içəri girdi. Qorxudan nə edəcəyini bilməyən yazıq tutuquşu oradan yuxarı qaçarkən gül yağı şüşəsini aşırtdı, ortalığı bir-birinə qatdı. Bir az sonra evindən dönən dükan sahibi vəziyyəti gördükdə çox qəzəbləndi və qəzəblə tutuquşunun başına vurdu. Vuran kimi də olan-oldu, tutuquşunun dili tutuldu, başındakı tüklər töküldü. Yazığın başı keçəl oldu. Günlər keçdi, lakin tutuquşu heç cür danışmadı.

Baqqal etdiyinə çox peşman oldu. Ah-vay edərək saçını-saqqalını yoldu. *"Əlim qırılaydı, yazıq quşa vurmayaydım"*- deyə öz-özünə deyindi, quş yenidən dilə gəlsin deyə yoxsullara sədəqələr verdi. Aradan üç gün, üç gecə keçdi, lakin quş danışmadı. Baqqal bu quş artıq danışmayacaq deyərək, kədərli-kədərli düşünürdü. O sırada balqabaq kimi tamamilə başı

tüksüz bir nəfər keçirdi. Bunu görən tutuquşu dərhal dilə gələrək danışmağa başladı:

- *"Ey keçəl, niyə keçəl oldun, yoxsa sən də gül yağı şüşəsini tökdün?"*- deyə səsləndi. Bunu eşidən hər kəs gülməyə başladı. Çünki tutuquşu gördüyü bu adamın da özü kimi gül yağı şüşəsini aşırıb sındırdığını, buna görə sahibinin onun da başına vuraraq saçlarının tökülməsinə səbəb olduğunu sanmışdı..

FİL BALASI

Hindistanda ağıllı və bilikli bir kişi var idi. Bir gün dostlarından iki-üç kişinin uzaq bir obadan gəldiyini, ac və çılpaq, pərişan bir halda olduqlarını görüb onlara yazığı gəlir və belə nəsihət edir:

-*"Bilirəm, hədsiz dərcədə ac və pərişansınız. Çəkdiyiniz aclıqdan Kərbəla çöllərinə düşmüş kimi görünürsünüz. Dərdli və sıxıntılı olduğunuz üzünüzdən bəllidir. Amma məni diqqətli dinləmənizi istəyirəm. İndi bundan sonra getdiyiniz yollarda qarşınıza fillər çıxacaq və onlarla qarşılaşdığınızda son dərəcə kök və gücsüz olan fil balalarını ovlamaq istəyəcəksiniz, bu, sizə asan və cazibədar görünəcəkdir. Amma unutmayın ki, anaları pusquda onları gözləyirlər. Balası itdikdə onu axtarar, ağlayıb-sızlayar. Xortumundan alov saçaraq, duman çıxarar. Fillər övladlarına çox bağlı olurlar. Əsla fil balalarını ovlayıb yeməyin, aclıqdan ölsəniz də bunu etməyin, çünki hara getsəniz də ana fil övladlarının qoxusunu təqib edərək sizi tapar",*-dedi.

Sonra belə davam etdi:

-*"Əgər bu nəsihətimi dinləsəniz başınızı bəladan qurtarmış olarsınız. Otlara, yarpaqlara, yabanı meyvələrə razı olun, əsla nəfsinizə uyub fil balalarına tamah salmayın, onları ovlamayın.*

Mən sizə lazım olan hər şeyi söylədim, günah məndən getdi. Ancaq mənim bu söylədiklərimə diqqət edən sonda bir ziyan görməz. Sizə uğurlar olsun, sağlıqla gedin..."

Bu yolçular yollarına davam edərkən, ərzaqları bitdi, qıtlığa düşdülər, aclıqdan halsızlaşdılar. Aclıqları, susuzluqları hər an artırdı, taqətdən düşürdülər. Elə bu anda yeni dünyaya gəlmiş kök, zərif bir fil balası gördülər. Ac canavar kimi fil balasının başına toplaşdılar, onu kəsib yemək istədilər. Aralarından bir nəfər onlara deyilənləri yadlarına saldı. Amma kimsə qulaq asmadı.

Yoldaşları fil balasını kəsib, sonra kabab edib yedilər, ona da uzatdılar:

-*"Burax bu boş sözləri, gəl qarnını doyur, bax, nə qədər gözəl ətdir"-dedilər.*

Amma bütün bu təkidlərə baxmayaraq, o ağıllı adam fil balasının ətindən yemədi. Qarınlarını fil balasının ətiylə dolduranlar bir az sonra dərin bir yuxuya getdilər.

Fil balasının ətindən yeməyən kişi isə aclıqdan dolaşıb, dururdu.

Aradan bir müddət keçdikdən sonra qəzəbli bir fil çıxıb gəldi, əvvəlcə, o ağıllı adamın yanına gəlib, qorxudan titrəyən, əcəl tərləri tökən adamın ağzını üç dəfə iylədi, amma balasının iyini almadı. Adamın ətrafında qəzəbli-qəzəbli bir neçə dəfə dolandı, sonra adama toxunmadan getdi. Yatanların yanına çatıb ağızlarını iylədi. Kimdən balasının iyini aldısa havaya qaldıraraq, yerə çırpıb parçaladı.

Rüşvət alan, fil balasını yeyən insan kimidir. Bir gün fil onun kökünü qazıyar məhv edər...

Alim Qasımov ilə "Ziyalı ünsiyyəti"

GRBS Beynəlxalq Tədris Mərkəzi **"Aydınlığa doğru"** milli-mənəvi dəyərlərin qorunması İctimai Birliyinin tədbirinə bir daha ev sahibliyi etdi. Bu gözəl işgüzar məkanda **"Aydınlığa doğru"** İctimai Birliyinin aylıq **"Ziyalı ünsiyyəti"** çərçivəsində növbəti görüşü keçirildi. Bu dəfəki görüşün mövzusu may görüşünün *("İnsan həyatında musiqinin yeri")* davamı olaraq *"Musiqi əyləncədir, yoxsa təfəkkür tərzi"* adlanırdı.

Görüşün əsas iştirakçıları sənətşünaslıq elmləri doktoru, professor Sevil xanım Fərhadova və xalq artisti, xanəndə və muğam ustası Alim Qasımov və Fərqanə Qasımova idi. Sənətşünaslıq elmləri namizədi, Bakı Musiqi Akademiyasının dosenti, professor Zümrüd Dadaşzadə, müğənni Azərin xanım, əməkdar memar Sabir Orucov, fəlsəfə elmləri doktoru, professor Rəfiqə Əzimova, filologiya elmləri namizədi Mömünat Ömərova, fəlsəfə elmləri doktoru Əhməd Qəşəmoğlu, yazıçı-sənətşünas Sara Oğuz, rəssam Elçin Hami Axundov, kinorejissor Elçin Musaoğlu, psixoloq Elmir Əkbər də tədbirə xüsusi dəvət alan qonaqlar sırasında idilər. Həmçinin görüşə şəhər ictimaiyyətinin fəal nümayəndələri, televiziya və mətbuat təmsilçiləri də dəvət olunmuşdular. Görüşün aparıcısı **"Aydınlığa doğru"** İctimai Birliyinin sədri, tanınmış telejurnalist Solmaz Əmirli idi. **"Ziyalı ünsiyyəti"**ni giriş sözü ilə GRBS Beynəlxalq Tədris Mərkəzinin nümayəndəsi Bəhram Qurbanov açdı. Qonaqları salamlayan Bəhram müəllim gənclərin maariflənməsi yönündə müxtəlif layihələr həyata keçirən təlim mərkəzinin ziyalı görüşlərinə bundan sonra da həvəslə ev sahibliyi edəcəyini söylədi.

"Musiqi əyləncədir, yoxsa təfəkkür tərzi" adlanan bu görüşün mövzusunu nəzəri cəhətdən professor Sevil xanım Fərhadova kifayət qədər geniş və maraqlı şəkildə açıqladı. Azərbaycan muğamını dünya miqyasında təbliğ edən və sevdirən Alim Qasımov məhz öz həyatında musiqinin yerindən, muğamın insan düşüncəsinə təsirindən danışdı. Görüşdə fəal iştirak edən professor Zümrüd xanım Dadaşzadə ünsiyyətdə olduğu məşhur dünya musiqiçilərinin Alim Qasımov və Azərbaycan muğamı haqqında söylədiklərini qonaqların diqqətinə çatdırdı.

Görüşdə **"Ziyalı ünsiyyəti"** klubunun üzvləri və digər qonaqlar Alim və Fərqanə Qasımovlara olan hörmət və sevgilərini izhar etdilər, Azərbaycan muğamının dünya miqyasında təbliğində onlara daha böyük uğurlar arzuladılar. Sonda Solmaz xanım Əmirli görüş iştirakçılarına ənənə üzrə **"Aydınlığa doğru"** milli-mənəvi dəyərlərin qorunması İctimai Birliyinin xatirə diplomlarını və hədiyələr təqdim etdi.